Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

22 YANVAR 2020-ci il

№ 10 (4141)

Qiymәti 40 qәpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# DÜNYANI BÜRÜYƏCƏK «BÖYÜK DEPRESSİYA»NIN KÖKÜ - ƏHALİ ARASINDA DƏHŞƏTLİ BƏRABƏRSİZLİK VƏ AZƏRBAYCANIN ETİBARLI SIĞORTASI...

■ səh. 10 ■

Prezident İlham Əliyevin ikitərəfli Davos görüşləri Azərbaycana yeni investisiya cəlb edilməsinə necə təsir edəcək?

■ səh. 3 ■

Azərbaycanda radikal partiya rəhbərləri 20 Yanvar hüzn izdihamını da siyasiləşdirməyə cəhd etdilər

■ səh. 7 ■

Bəzi deputatlığa namizəd partiya sədrlərinin posterləri sadəcə biabırçılıqdır...

■ səh. 5 ■

Seçki kampaniyasında şəhid ailələrinin vəziyyətindən bəhrələnən namizədlər - təcrübə doğrudurmu?

■ səh. 5 ■

Sosial şəbəkələrdə namizədlərin başında virtual səsvermə oyunu - çox namizədin sadəlövhlüyü...

■ səh. 4 ■

Ermənilərin daha bir uydurma "genosid böhtanı" - türklər Bakıda 1918-ci ildə 23 min erməni öldürüb?...

■ səh. 6 ■

Ermənistanda siyasi qətllər dövrü başlanır - Paşinyanın ilk DTX rəhbərinin gözləri yollarda...

■ səh. 9 ■

Ermənilər məşhur Aşıq Qəribi də Sarkis adlanan "qondarma müqəddəslə" bağladılar

■ səh. 13 ■

Qaz sayğaclarının oğurlanması ilə xüsusi məşğul olanlar var - məlumatı "Azəriqaz" rəsmisi də təsdiqləyir

■ səh. 14 ■




■ səh. 8 ■

## Azərbaycanın böyük nəqliyyat-tranzit imkanları Davos Forumunun gündəmində mühüm yer tutdu



Rusiya XİN-dən Azərbaycanla əməkdaşlığın «Böyük yol xəritələri» ilə bağlı xüsusi jest...

■ səh. 4 ■

Azərbaycandan xarici daşınmaz əmlak bazarına axan böyük pulları necə dayandırmalı...

■ səh. 12 ■



Ermənistan Putinin Konstitusiya islahatlarını qaralamağa başlayıb - Qəddafinin faciəsinə istinadlar var...

■ səh. 6 ■

■ səh. 3 ■

Baş Dövlət Yol Polisi İdarəsinin illik hesabatında nazir Vilayət Eyvazov tələb etdi...



■ səh. 2 ■

Saatlının Məzrəli kəndinə toplaşmış bir neçə kəndin sakinləri deputatlığa namizəd Əhliman Əmiraslanova söz verdilər...



■ səh. 2 ■

"Matəm günlərini siyasiləşdirmək radikal müxalifətin ənənəvi siyasi davranış üsuludur"



■ səh. 7 ■

Qorbaçova cinayət işinin açılması Azərbaycan cəmiyyətinin ümumi tələbinə çevrilib...



■ səh. 15 ■

Bakıda kirayə üsulu ilə satılacaq mənzillərin qiyməti narazılıq doğurmağa başlayıb



# Davosda "Carlsberg Group" şirkətinin baş icraçı direktoru Cees't Hart Prezident İlham Əliyevin apardığı islahatların böyük nəticələrindən danışdı



**Prezident İlham Əliyev yanvarın 21-də Davosda "Carlsberg Group" şirkətinin baş icraçı direktoru Cees't Hart ilə görüşüb.**

Ölkəmizdə son illərdə aparılan islahatların artıq müsbət nəticələr verdiyini, bunun xüsusilə şəffaflığın və hesabatlılığın artırılması hesabına vergi və gömrük orqanlarının topladığı büdcə gəlirlərində özünü göstərdiyini qeyd edən dövlət başçısı ölkəmizdə investisiya və biznes mühitinin daha da əlverişli olması istiqamətində islahatların davam etdiriləcəyini, xarici və yerli investorlar üçün vergi, gömrük və digər sahələrdə proqnozlaşdırıla bilən siyasətin həyata keçiriləcəyini vurğulayıb.

Görüşə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən "Carlsberg Group" şirkətinin baş icraçı direktoru Cees't Hart dövlət başçısı tərəfindən son illərdə aparılan uğurlu islahatlardan, Azərbaycandakı əlverişli biznes və investisiya şəraitindən məmnunluğunu ifadə edib, bu tədbirlərin biznes və rəqabət mühitinin sağlamlaşdırılması, həmçinin şəffaflığın artırılması üçün geniş imkanlar yaratdığını vurğulayıb. Baş icraçı direktor "Carlsberg Group" olaraq xarici investor kimi bu islahatlara hər zaman dəstək verdiklərini və bu dəstəyin bundan sonra da davam etdiriləcəyini bildirib. Cees't Hart bu imkanlardan faydalanaraq Azərbaycana investisiya qoyuluşunu artırmaq niyyətində olduqlarını qeyd edən qonaq, həmçinin, aidiyyəti hökumət qurumları ilə şəffaflığın, hesabatlılığın və mühasibatlılığın daha da yüksək səviyyəyə qalxması üçün əməkdaşlıq etdiklərini deyib.

**Söhbət zamanı bildirilib ki, bu ildən başlayaraq "Carlsberg Group" şirkəti kənd təsərrüfatı sektoruna da investisiya qoyuluşunu həyata keçirəcək və bu istiqamətdə artıq pilot layihələrin icrasına başlanıb.**

# Saatlının Məzrəli kəndinə toplaşmış bir neçə kəndin sakinləri deputatlığa namizəd Əhliman Əmiraslanova söz verdilər...

*Akademik yenidən seçiləcəyi təqdirdə həll edəcəyi problemlərdən danışdı*

**65 saylı Saatlı-Sabirabad-Kürdəmir seçki dairəsindən deputatlığa namizəd, akademik Əhliman Əmiraslanovun təbliğat-təşviqat kampaniyası uğurla davam edir. Bu günlərdə Ə.Əmiraslanov deputatlığa namizəd olduğu 65 saylı seçki dairəsinə aid olan Saatlı rayonunun Məzrəli kəndində seçicilər ilə görüşüb.**



Görüşdə Məzrəli kənd sakinləri ilə yanaşı, Hacı Qasımlı, Naharlı və s. kəndlərdən olan seçicilər də iştirak edib. Görüşdə çıxış edən akademik Əhliman Əmiraslanov Azərbaycanda son illər bütün sahələrdə müşahidə olunan inkişafdan söz açıb. O qeyd edib ki, Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində, respublikamızın bütün bölgələrində olduğu kimi, Saatlı rayonunda da sosial layihələrin həyata keçirilməsi davam etdirilir. Ölkəmizdə əhalinin sosial rifahının getdikcə yaxşılaşdığını bildirən Əhliman Əmiraslanov, bununla belə, vətəndaşları narahat edən bəzi problemlərin də olduğunu qeyd edib. O, seçicilərin yenidən etimadını qazandığı halda, hər zaman olduğu kimi, bundan sonra da seçiciləri narahat edən məsələlərin Milli Məclisdə qaldırılması istiqamətində fəaliyyət göstərəcəyini, onların həlli naminə köməyini əsirgəməyəcəyini, hər zaman seçicilərinin yanında olacağını bəyan edib. Görüşdə çıxış edən seçicilər də öz növbəsində hamılıqla Ə.Əmiraslanova səs verəcəklərini bildiriblər. Seçicilər Ə.Əmiraslanovun deputat olduğu ötən illər ərzində rayon ərazisində sakinlərin yaşayış şəraitinin yaxşılaşdırılması məqsədilə görülən işlərdən, hər hansı bir xəstəliklə bağlı deputata müraciət etdikdə dərhal lazımi tibbi xidmətlə təmin olunduqlarından danışaraq, növbəti çağırış parlamentdə də millət vəkili kimi məhz Ə.Əmiraslanovun Saatlı rayonunu təmsil etməsi arzusunda olduqlarını açıqlayıblar.

***Baki-xeber.com***

# Aydın Quliyev: "Matəm günlərini siyasiləşdirmək radikal müxalifətin ənənəvi siyasi davranış üsuludur"

**Ümummilli matəm və bayram günlərini siyasiləşdirmək Azərbaycanın radikal müxalifəti üçün ənənəvi siyasi davranış üsuluna çevrilməkdədir. Əli Kərimli və bir qrup tərəfdarının 20 Yanvar hadisələrinin ildönümü ilə bağlı Şəhidlər Xiyabanındakı davranışları buna sübutdur.**




Bunu "Trend"ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.

O bildirib ki, böyük insan axını şəraitində ziyarətin insidentsiz və təhlükəsiz ötüşməsi üçün müvafiq rəsmi orqanlar tərəfindən tənzimləyici tədbirlərin görülməsinin zəruri olduğunu bütün qərəzsiz və obyektiv insanlar qəbul edir:"Heç bir sübuta ehtiyac yoxdur ki, kütləvi matəm və bayram tədbirləri rəsmi qaydada idarə edilmədiyi halda hər cür xoşagəlməzliklərin baş verməsi qaçılmaz ola bilər. Polisin insanların izdihamlı ziyarətinin təhlükəsizliyini təmin etməsini guya hansısa siyasi təşkilat nümayəndələrinə qarşı məhdudlaşdırıcı tədbir kimi qələmə vermək yolverilməzdir.

Artıq neçənci dəfədir ki, "Milli Şura" təmsilçiləri ümumxalq hüzn günü izdihamlarından siyasi məqsədlə istifadə etməyə səy göstərir. Görünür ki, radikallar bir il əvvəl - 2019-cu ilin əvvəlində Şəhidlər Xiyabanında insanların kövrək hissləri üzərində siyasət qurmaq oyunlarına elin açıq qınaq reaksiyalarından nəticə çıxarmayıblar. Cəmiyyətimiz, kimliyindən asılı olmayaraq, hüzn və bayram tədbirlərinin siyasiləşdirilməsinə qarşı hər zaman barışmaz mövqe tutub".

Ekspert vurğulayıb ki, ümumxalq hüzn tədbirlərinin siyasiləşdirilməsi Milli Şura partiyalarının ölkədə ictimai rəyə sayqısız yanaşdıqlarını bir daha sübut edir: "Bu qüvvələr üçün xalqın nə düşündüyü yox, özlərinin və pərdəarxası qüvvələrin yazdığı plan əsasında hərəkətlər etmək daha vacibdir. Ümumxalq hüzn günlərini siyasiləşdirmək cəhdləri radikallarla Azərbaycan xalqı arasında dərin mövqe fərqləri və uçurum olduğunu göstərir.

Heç şübhə yoxdur ki, şəhərin onsuz da gur insan axını olan yerlərində aksiyalar keçirməklə sosial bazasızlığı ört-basdır etmək taktikası süquta uğradığına görə radikallar yeni üsula əl atır. Bu dəfə də izdihamlı matəm yürüşü içində guya geniş sosial bazalarının olduğunu nümayiş etdirmək istəyirlər. Lakin bütün hallarda cəmiyyət dəyişməyən oyunçuların kimliyini yaxşı bildiyi üçün fitnələrə uymur. Xalq bilir ki, hüzn mərasimlərini siyasiləşdirmək istəyənlər vaxtilə hakimiyyəti yarıtmaz idarə etdikləri üçün xalq tərəfindən devrilən və 27 ildə bir siyasi qələbə qazana bilməyən uğursuz təşkilat rəhbərləridir".

**Məlum olduğu kimi, yanvarın 21-də İsveçrənin Davos şəhərində 50-ci Dünya İqtisadi Forumu işə başlayıb. Belə ki, 21-24 yanvar tarixlərində keçiriləcək iqtisadi foruma 117 ölkədən 3 min siyasətçi, iş adamları, qeyri-hökumət təşkilatlarının nümayəndələri və jurnalistlər qatılıb.**

# Prezident İlham Əliyevin ikitərəfli Davos görüşləri Azərbaycana yeni investisiya cəlb edilməsinə necə təsir edəcək?




## *Ruslan Atakişiyev: "Həmin şirkət rəhbərlərinin ölkə başçısı ilə ikitərəfli görüşlər keçirməsi mühüm əhəmiyyət kəsb edir"*

Forum çərçivəsində 400-dən çox açıq və qapalı iclasın keçirilməsi planlaşdırılır. Ümumilikdə, builki Davos Forumunda 50-dən çox ölkə Prezident və Baş nazir səviyyəsində təmsil olunur.

Onu da qeyd edək ki, Prezident İlham Əliyevin Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfəri başlayıb. Ölkə başçısı səfər çərçivəsində bir sıra nüfuzlu şirkət rəhbərləri, işgüzar dairələrin rəhbərləri ilə görüşlər keçirib. Prezident İlham Əliyev Davosda "VTB Bank"ın prezidenti-idarə heyətinin sədri Andrey Kostinlə görüşüb. Görüşdə "VTB Bank"ın Azərbaycanda uzun müddət uğurlu fəaliyyət göstərdiyi qeyd olunub. Ölkə başçısı "VTB Bank"a Azərbaycan iqtisadiyyatının real sektoruna kredit qoyuluşunu artırmasını təklif edib. Andrey Kostin təklifə müsbət yanaşdığını bildirib və dövlət başçısını əmin edib ki, "VTB Bank" bu istiqamətdə fəaliyyətini daha da genişləndirəcək. Bununla belə, ölkə başçısı "CISCO" şirkətinin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramerlə görüşüb. Görüşdə "CISCO" şirkəti ilə Azərbaycanın uzun müddətdir müxtəlif sahələrdə əməkdaşlıq etdiyi bildirilib. Qeyd olunub ki, "CISCO" şirkəti hazırda Azərbaycanda prioritet istiqamətlər üzrə layihələr reallaşdırmaqdadır. Prezidenti İlham Əliyev, həmçinin, "Carlyle Group" şirkətinin həmtəsisçisi Devid Rubinşteynlə görüşüb.

Bütövlükdə, Prezident İlham Əliyev 2007-ci ildən Davosda keçirilən forumda iştirak edir və hər dəfə böyük şirkətlərin rəhbərləri ölkə başçısı ilə işgüzar görüşlərin keçirilməsinə xüsusi maraq göstərirlər. Bu əvvəl də belə idi, indi də belədir. Ümumilikdə, bu ikitərəfli görüşlərin keçirilməsinin əhəmiyyətini ekspertlər necə dəyərləndirirlər? Bu kimi görüşlər Azərbaycana yeni investisiya cəlb edilməsinə necə təsir edəcək?

*"Xüsusən də iqtisadiyyatın qeyri-neft sektoruna investisiyaların cəlb edilməsi baxımından bunun müsbət təsir edəcəyi gözlənir"*

Məsələyə münasibət bildirən İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin direktoru Ruslan Atakişiyevin sözlərinə görə, bu cür görüşlərin keçirilməsi mühüm əhəmiyyətə malikdir: "Nəzərə almaq lazımdır ki, Davos İqtisadi Forumunda böyük transmilli korporasiyaların təsisçiləri, rəhbərləri iştirak edirlər. Nəticədə həmin şəxslərlə bir sıra ikitərəfli görüşlərin keçirilməsi üçün imkanlar yaranır. Həmin şirkət rəhbərlərinin Prezident İlham Əliyevlə ikitərəfli görüşlər keçirməsi mühüm əhəmiyyət kəsb edir. Çünki görüşlər çərçivəsində yeni iqtisadi imkanlar barəsində daha detallı məsələlər müzakirə olunur. Həmçinin, iri layihələrə beynəlxalq səviyyəli böyük şirkətlərin cəlb olunması imkanları artır. Bu baxımdan hesab edirəm ki, sözügedən ikitərəfli görüşlərin faydası böyük olacaq. İkitərəfli Davos görüşləri Azərbaycana yeni xarici sərmayələrin cəlbində vacib rol oynayacaq. Xüsusən də iqtisadiyyatın qeyri-neft sektoruna investisiyaların cəlb edilməsi baxımından bunun müsbət təsir edəcəyi gözlənir. Xarici şirkətlərin bu kimi görüşlərdə fəal iştirak etməsi onu göstərir ki, onlar Azərbaycana yeni sərmayələr qoymaqda maraqlıdırlar".

*Vidadi ORDAHALLI*

**Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun iştirakı ilə Baş Dövlət Yol Polisi İdarəsində 2019-cu ildə yol hərəkəti təhlükəsizliyinin təmini sahəsində görülən işlər və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.**

# Baş Dövlət Yol Polisi İdarəsinin illik hesabatında nazir Vilayət Eyvazov tələb etdi...

*"Əsas məsələ cəzalandırmaq yox, yol hərəkətinin təhlükəsizliyini təmin etməkdir..."*




Daxili işlər naziri V.Eyvazov tədbirin gündəliyini elan edib, reqlament təsdiq edildikdən sonra görülmüş işlər və qarşıda duran vəzifələr barədə məruzə ilə çıxış etmək üçün söz Baş İdarənin rəisi, polis general-mayoru Ramiz Zeynalova verilib.

Məruzəçi bildirib ki, yol polisinin maddi-texniki bazasının müasirləşməsi, xidmətin "elektron hökumət" dövlət proqramına uyğun qurulması, qayda pozuntularının texniki vasitələrlə aşkarlanması müasir innovasiyaların tətbiqinə geniş imkan yaradıb. Hesabat dövründə avtomobil yollarında foto və video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrlə yol hərəkətinə nəzarət daha da gücləndirilib, bütövlükdə 502 radar, 617 videokamera və 296 nömrəoxuma sistemi və digər xüsusi texniki vasitələr quraşdırılıb.

Yaradılan imkanlardan istifadə etməklə əməkdaşlar ötən il ərzində 3,3 milyona yaxın yol hərəkəti qayda pozuntusu aşkarlayıblar ki, onların da 64 faizi xüsusi texniki vasitələrin köməyi ilə qeydə alınıb. Qayda pozuntularına görə 7 min 316 nəfərin sürücülük hüququ məhdudlaşdırılıb.

Baş İdarə rəisi təəssüflə bildirib ki, görülmüş tədbirlərə baxmayaraq, ötən il respublika ərazisində 1870 yol-nəqliyyat hadisəsi qeydə alınıb, nəticədə 821 nəfər həlak olub, 1702 nəfər xəsarət alıb. Bu da 2018-ci illə müqayisədə yol-nəqliyyat hadisələrinin sayının 53 fakt, onların nəticəsində həlak olanların sayının 99 nəfər artması, xəsarət alanların sayının isə 9 nəfər azalması deməkdir.

Qeydə alınan ümumi hadisələrin 43,6 faizi piyadaların vurulması ilə bağlı olub ki, nəticədə 329 nəfər həlak olub, 527 nəfər xəsarət alıb.

Polis general-mayoru R.Zeynalov qeyd edib ki, insanları narahat edən məsələlərin həllinə xüsusi həssaslıqla yanaşılması barədə cənab nazirin müvafiq tapşırığına uyğun olaraq ərizə və şikayətlərin obyektiv araşdırılması, qəbulların müntəzəm keçirilməsi diqqət mərkəzində saxlanılıb, Baş idarədə 1500-ə yaxın vətəndaş qəbul edilib, daxil olmuş 93 minə yaxın sorğu və müraciət operativ qaydada cavablandırılıb.

Məruzə ətrafında çıxış edənlər görülmüş işlərdən, yol verilmiş nöqsanlardan və onların aradan qaldırılması üçün qarşıda duran vəzifələrdən danışıblar.

Müşavirəyə yekun vuran daxili işlər naziri Vilayət Eyvazov Dövlət Yol Polisi Xidmətinin ötənilki fəaliyyətinin nəticələrini ümumən müsbət qiymətləndirib, qarşıda çox mühüm vəzifələrin durduğunu bildirib, onların həlli üçün konkret tapşırıq və tövsiyələrini verib. O, hər bir əməkdaşın vəzifə borcunu layiqincə yerinə yetirməsi, fəaliyyətin bütün sahələrində işlərin uğurlu getməsi üçün peşəkarlığın ən vacib amil olduğunu xatırladıb, eyni zamanda, əldə edilmiş müsbət nəticələrdən arxayınlaşmamağı, daha məsuliyyətlə xidmət aparılmasını tövsiyyə edib.

Nazir tələb edib ki, əməkdaşlar hərəkət iştirakçıları ilə ünsiyyətdə kobud rəftardan çəkinməli, etik davranış qaydalarına ciddi riayət etməli, bununla belə qətiyyətli və nəzakətli olmalıdırlar. Eyni zamanda, sürücülərə törətdikləri inzibati xətanın yarada biləcəyi mənfi nəticələr izah olunmalı, onlarla lüzumsuz dialoq aparılmasına, kobudluğa və mübahisə yarada biləcək digər hallara yol verilməməlidir.

General-polkovnik V.Eyvazov yol hərəkətinin iştirakçıları, o cümlədən sürücülər arasında cəmiyyətdəki mövqeyinə, tutduğu vəzifəyə, peşəsinə görə özünü qanundan üstün tutan, törətdiyi qayda pozuntusuna rəğmən imtiyaz tələb edən şəxslərin mövcudluğunu təəssüflə xatırladaraq, belələrinə münasibətdə qanunla müəyyən edilmiş qaydada qəti tədbirlərin görülməsini də tələb edib. O, başlıca vəzifənin hərəkət iştirakçılarını cəzalandırmaq deyil, yol hərəkətinin təhlükəsizliyi və tənzimlənməsini təmin etmək, insanların həyat və sağlamlığının avtomobil qəzalarından qorunması kimi vacib və şərəfli vəzifələrin icrasını həyata keçirmək, yol-hərəkəti qaydalarının kobudcasına pozulması hallarının qarşısını almaq olduğunu bildirib.

Xidməti vəzifələrin uğurla yerinə yetirilməsi üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən hər cür şərait yaradıldığını, şəxsi heyətin dövlətin qayğısı ilə əhatə olunduğunu nəzərə çatdıran daxili işlər naziri ölkə başçısının bu ali diqqətinə və etimadına cavab olaraq hər bir əməkdaşın üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələcəyinə, xidmətdə və xidmətdənkənar vaxtlarda başqalarına nümunə olaqlarına əminliyini bildirib.

# Rusiya XİN-dən Azərbaycanla əməkdaşlığın "Böyük yol xəritələri" ilə bağlı xüsusi jest...

**Rusiya-Azərbaycan strateji tərəfdaşlığının keyfiyyətcə yeni səviyyəyə çıxmasına yönələn 5 "Yol xəritəsi" uğurla həyata keçirilir. Həmçinin, innovasiyaların inkişafı və rəqəmsal iqtisadiyyat sahəsindəki əməkdaşlığa dair əlavə "Yol xəritəsi"nin hazırlanmasına aidiyyəti qurumlar tərəfindən başlanıb.**



## Rəsul Cahangirli: "Rusiya Azərbaycanla çoxşaxəli iqtisadi əlaqələrin qurulmasının nə qədər faydalı olmasının fərqindədir"

Bu fikirlər Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin rəsmi saytında dərc olunub. Həmçinin, qeyd olunub ki, ötən il Azərbaycanla strateji tərəfdaşlıq bütün əsas istiqamətlərdə yüksələn xətt üzrə inkişaf edib. İkitərəfli qarşılıqlı fəaliyyətin möhkəmlənməsinə bir çox cəhətdən Rusiya Prezidenti Vladimir Putinin və Azərbaycan Prezidenti İlham Əliyevin etimada söykənən açıq dialoqu kömək edib.

Bununla belə, qeyd edilib ki, 2019-cu ildə liderlər 3 dəfə görüşüblər: aprelin 26-da Pekində "Bir kəmər, bir yol" Forumu çərçivəsində, oktyabrın 3-də Valday forumunda və dekabrın 20-də Sankt-Peterburqda MDB-nin qeyri-rəsmi sammiti çərçivəsində. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva 2019-cu il noyabrın 20-25-də Moskvaya səfər edib. Hökumət və parlament xətləri üzrə əlaqələr fəal inkişaf edib. Federasiya Şurasının sədri Valentina Matviyenko apreldə Bakıda rəsmi səfərdə olub. O da qeyd edilib ki, Rusiya Azərbaycanın əsas ticari tərəfdaşlarından biridir. 2019-cu ilin yanvar-oktyabr aylarında əmtəə dövriyyəsi 2,5 milyard ABŞ dolları təşkil edib ki, bu da 2018-ci ilin müvafiq dövründəkindən 25 faiz çoxdur.

Sözügedən məlumatlarının Rusiya XİN-in saytında yer alması onu göstərir ki, bu ölkə Azərbaycanla strateji tərəfdaşlığa xüsusi önəm verir. Müxtəlif birgə layihələrin həyata keçirilməsində maraqlıdır.

Məsələyə münasibət bildirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, Rusiyanın Azərbaycanla strateji tərəfdaşlığa xüsusi önəm verməsi təsadüfi deyil: "Rusiya Azərbaycanla çoxşaxəli iqtisadi əlaqələrin qurulmasının nə qədər faydalı olmasının fərqindədir. Onlar görür ki, Azərbaycanla birgə həyata keçirilən layihələr perspektivlidir və hər iki ölkənin maraqlarına xidmət edir. Bu səbəbdən Rusiya maraqlıdır ki, Azərbaycanla bağlı "Yol xəritələri"nin sayı artsın. Çünki bu, iki ölkə arasında strateji tərəfdaşlığın

> *"Qarşılıqlı investisiyaların qoyulması ondan xəbər verir ki, iki ölkə arasında iqtisadi əlaqələr daha da dərinləşəcək"*

keyfiyyətcə yeni mərhələyə daxil olmasına müsbət təsir göstərəcək. Hazırda Azərbaycanda 950 müştərək müəssisə işləyir. Hesab edirəm ki, bu böyük rəqəmdir. Rusiya Azərbaycana 4,5 milyard dollar, Azərbaycan Rusiyaya 1,5 milyard dollar investisiya yatırıb. Qarşılıqlı investisiyaların qoyulması ondan xəbər verir ki, iki ölkə arasında iqtisadi əlaqələr daha da dərinləşəcək. Nəzərə almaq lazımdır ki, Rusiya Azərbaycanın iştirak etdiyi enerji və nəqliyyat dəhlizlərinin imkanlarından istifadə edir. Bununla belə, Şimal-Cənub nəqliyyat dəhlizinin reallaşdırılması ilə bağlı qızğın iş gedir. İnnovasiyaların inkişafı və rəqəmsal iqtisadiyyat sahəsindəki əməkdaşlığa dair əlavə "Yol xəritəsi"nin hazırlanması da faydalı olacaq. Çünki son illər bu sahəyə xüsusi diqqət yetirilir. Bütün bunların icrası Azərbaycanla Rusiya arasında iqtisadi əlaqələrin inkişafına dair yeni mərhələ açıb".

***Vidadi ORDAHALLI***



# Formalaşacaq yeni parlament ölkədə davamlı siyasi sabitliyin möhkəmləndirilməsində mühüm rol oynayacaqmı?

**"Milli Məclisə seçkilər ölkəmizin siyasi həyatında mühüm hadisədir. Deputatlığa namizədlərin sayı, ölkədə olan ab-hava seçkilər öncəsi mühitin yaxşı olduğunu deməyə əsas verir".**

Bu fikirləri secki-2020.az saytına açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, politoloq Aydın Quliyev deyib.

"Azərbaycan Prezidentinin rəhbərliyi ilə ölkədə müxtəlif sahələrdə ciddi islahatlar həyata keçirilir, yeni, gənc kadrlar yüksək vəzifələrə təyin olunur. Cəmiyyətimizdə həyata keçirilən bu islahatlar ölkəmizin inkişafının daha da sürətləndirilməsinə, insanların rifah halının daha da yaxşılaşdırılmasına xidmət edir. Ona görə də Azərbaycan parlamentinin yenilənməsi ilə bağlı qərar mühüm əhəmiyyət daşıyır", - deyə Aydın Quliyev vurğulayıb.

O qeyd edib ki, yeni formalaşacaq parlament ölkədə davamlı siyasi sabitliyin daha da möhkəmləndirilməsində mühüm rol oynayacaq.

# Sosial şəbəkələrdə namizədlərin başında virtual səsvermə oyunu - çox namizədin sadəlövhlüyü...

**Seçkinin həlledici mərhələsində yaşanan maraqlı proseslərdən biri də bəzi saytların keçirdikləri virtual səsvermədir. Bunu bir qədər detallı izah edək. Hansısa bir sayt elə də çətin olmayan proqram təminatını tətbiq etməklə belə bir sorğu keçirmək elanını verir. Bu xəbər namizədlər arasında yayılan kimi onlar bütün qohum-əqrəbanı, dost-tanışı girib hansısa saytda ona səs verməyə çağırırlar.**




Araşdırdıqda məlum olur ki, istənilən şəxs bir neçə dəfə istədiyi namizədə səs verə bilər. Proses təhlükəsizlik baxımından da şəffaf aparılmır. Səsverməyə cəlb edilən adamlardan hansısa fin kod və ya şəxsiyyət vəsiqəsinə aid başqa məlumatlar tələb olunmur. Bir sözlə, sanki bazar açılıb. Buradan ən uduşlu çıxan sorğunu təşkil edən saytlar olur. Çünki proses ərzində sayta çoxlu ziyarətçi cəlb edə bilirlər ki, bu da reklam almaq üçün önəmli vasitədir. Hətta namizədlərdən elələri olur ki, sayt rəhbərinə onları önə çıxarmaq üçün şirnikləşdirici təkliflər də edirlər. Araşdırmalar göstərir ki, bunu texniki cəhətdən etmək mümkündür. Yəni prosesə sadə müdaxilə ilə istənilən namizədin səsini artırmaq və ya azaltmaq olar. Ən maraqlısı isə budur ki, virtual səsvermənin nəticələrinə hamıdan çox inanan elə namizədlərin özü olur. Çünki əhalini səsverməyə məhz onlar səsləyirlər. Ancaq bir faktı da unudurlar ki, hətta səsvermə şəffaf keçirilsə belə, bunun onların seçki prosesinə heç bir təsiri ola bilməz. Götürək ki, bir namizədə dünyanın hər yerində onlayn səslər verilir və o, həddən artıq böyük səs topladı. Ancaq həmin adam namizədliyini, məsələn, Göyçaydan verib. İndi Sankt-Peterburqdan həmin namizədin lehinə verilmiş virtual səs Göyçayda qutudan çıxacaqmı? Təbii ki, yox! Onda namizədlər bu fırıldağın təsirinə niyə düşüb, enerjilərini seçicilərlə görüşə deyil, belə lüzumsuz yarışmalara sərf edirlər?

Bizi isə sadəcə olaraq bir məqam maraqlandırır. Azərbaycanda mövcud seçki mühitindən istifadə edərək parlamentə seçilmək əvəzinə, kiməsə 5-10 manat verib virtual olaraq özünü birinci etməyin mənası nədir? Əslində, bunun sadə bir cavabı var: təcrübəsizlik. Amma əgər kimsə özünü virtual olaraq deputat görmək istəyirsə, o zaman bu adamlara mane olmaq lazım deyil. Qoy "seçilsinlər". Sonra da gedib mövcud olmayan seçicilərinin problemləri ilə məşğul olarlar. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308.1-ci maddəsi ilə nəzərdə tutulmuş əməllər ağır nəticələrə səbəb olduqda və ya seçkinin (referendumun) nəticələrinə təsir məqsədilə törədildikdə 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə, əmlakı müsadirə olunmaqla 3 ildən 8 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Göründüyü kimi, belə mövzularda edilən saxta əməllər həm də cinayət tərkibi yaradır. Diqqətli olmaq lazımdır...

***Məhəmmədəli QƏRİBLİ***

# Bəzi deputatlığa namizəd partiya sədrlərinin posterləri sadəcə biabırçılıqdır...

**Parlament seçkilərinin təbliğat-təşviqat mərhələsində bir çox neqativlik üzə çıxır. Xüsusilə də seçkilərə qatılan bəzi partiya sədrlərinin apardıqları təbliğatın dayaz olması ilə bağlı. Deməli, bir çox partiya deputatlığa namizədlərinin sayı çox olsun deyə, onlara hər salam verənin adını partiyanın namizədi kimi göstərib.**

***Aydın Quliyev:*** *"Görünür, özləri də partiyalarının kölgəsinin o qədər dar olduğunu başa düşürlər ki..."*

***Raqif Məhəmmədoğlu:*** *"Belə mənzərənin yaranması partiyaların zəif institut olması və seçkilərdə böyük hədəflərə doğru hərəkət etməməsi ilə bağlıdır"*



60-70 nəfərlik siyahıya nəzər salırsan, partiya sədrindən başqa kimisə tanımırsan. Fikir verirsən ki, həmin partiyanın yalnız sədrlərini deputat etməkdən başqa hədəfləri nəzərə çarpmır. Çünki partiya sədri deputat olanda həm də dövlətin büdcəsində onlara 5 il maliyyə ayrılacaq və həmin üzvlər əməkhaqqı alacaqlar. Yəni seçkidə iştirak edən partiyaların başlıca niyyətlərinin bundan ibarət olduğu özünü göstərir. Bu qəbildən olan partiya sədrlərinin təbliğat posterlərində parlament seçkilərinin mahiyyətinə uyğun olmayan və ən əsası da təmsil etdikləri partiyaya heç bir bağlılığı olmayan populist şüarlardan çox istifadə edilir. Yəni partiya sədri və digər namizədlərin təbliğatında partiyaya aid hər hansı şüarı görmək olmur. Bu mövzuya özünün "Facebook" səhifəsində "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev də toxunub. Baş redaktor bildirir ki, seçkiyə qatılan bəzi partiya sədrləri öz seçki plakatlarında rəhbərlik etdikləri partiya barədə bircə kəlmə də söz yazmırlar: "Partiyanın sıravi üzvləri səviyyəsində ancaq öz təbliğatlarını aparmaq qayğısına qalırlar. Görünür, özləri də partiyalarının kölgəsinin o qədər dar olduğunu başa düşürlər ki, hətta təklikdə də ona sığınmağın mümkünsüzlüyünü anlayırlar.

Hər halda, partiyaları cəmiyyətdə ciddi sanbal sahibi olsaydl, onun adını hər addımda gözlərə soxmaq fürsətini əldən verməzdilər.

Doğrudan da fəaliyyət göstərdiyi 15, 20, 25 il, ondan da artıq müddət ərzində yalnız öz sədrinə əyri-üyrü yollarla bir mandat qazandırmaqdan başqa nailiyyəti olmayan siyasi partiyanın hansı kölgəsi ola bilər ki?!"

Seçki piarı mütəxəssisi Raqif Məhəmmədoğlu qəzetimizə bildirdi ki, bunun başlıca səbəbi namizədlərin seçkiyə ciddi hazırlaşmaması ilə bağlıdır: "Xüsusilə də partiya sədrləri imicmeykerlərdən ibarət qrupla işləməlidirlər. Burada partiya sədrlərinin bütün davranışları, necə foto çəkdirməsi, hansı jestikalardan istifadə etməsi də məsləhətli şəkildə edilməlidir. Əsasən də təbliğat posterlərinə fikir verdikdə orada qrafik dizayn işindən çox sadə fotoqraf işi nəzərə çarpır. Adam gedir studiyada bir foto çəkdirir, orada da fotoqrafa ağlına gələn bir şüarı deyir ki, bunu yazın. Halbuki, həmin şüar partiyada müzakirə edilib, səs çoxluğu ilə qəbul olunmalıdır. Belə mənzərənin yaranması partiyaların zəif institut olması və seçkilərdə böyük hədəflərə doğru hərəkət etməməsi ilə bağlıdır. Təbliğat posterlərində hətta çoxlu sayda hərf səhvlərinə də rast gəlinir. Partiya barədə tanıtım şüarının olmaması ortada kollektiv işin yoxluğunu şərtləndirir. Deməli, həmin qurumda avtoritarizm mühiti hökm sürür. Bunun bir səbəbi də proporsional seçki sisteminin olmamasıdır. Həmin seçki sistemi olanda seçicilər fərdlərə yox, partiyaya səs verirlər. Onda partiyanın təbliğatına daha böyük önəm vermək tələb edilir".

***Məhəmmədəli QƏRİBLİ***

# Seçki kampaniyasında şəhid ailələrinin vəziyyətindən bəhrələnən namizədlər - təcrübə doğrudurmu?

**Seçki kampaniyasının təbliğat-təşviqat mərhələsi namizədlərin mandat əldə etmək üçün bütün üsullara əl atdıqlarını üzə çıxarmış oldu. Əksər hallarda ucuz şoular üçün atılan bu addımlar heç də rəğbətlə qarşılanmır və qınaq obyektinə çevrilir.**



***Seyid Camal Əzimbəyli:*** *"Şəhid kimi müqəddəs adı seçki və siyasət alətinə çevirmək, ən azından, vicdansızlıqdır"*

Bu seçkilərdə namizədlərin şəhid ailələrinin adından seçki məqsədləri üçün istifadə etdiklərini izləyirik. Özü də bu taktikadan istifadə edənələr azlığı deyil, çoxluğu təmsil edir. Namizədlər apardıqları təbliğat çərçivəsində şəhid evlərinə gedir, oradan bir-iki foto çəkdirib öz reklamlarında istifadə edirlər. Saytlarda "filan namizəd şəhid ailəsilə görüşdü" başlığı ilə sponsorlu yazılar tirajladırlar. Burada şəhid ailələrini qınamaq olmaz. Qapıya gələn qonağı qova bilməzlər. Amma namizədlər də fikirləşməlidirlər ki, atdıqları addım kənardan heç də yaxşı təsir bağışlamır. Çünki şəhid ailələri yalnız seçkidən-seçkiyə deyil, hər zaman yad edilməli, onlara böyük ehtiram göstərilməlidir. İllər uzunu şəhid evini ziyarət etməyən bir namizəd indi öz məqsədləri üçün bunu edib, sonra reklam vasitəsinə çevirirsə, təbii ki, bu, xoşagələn hal olmayacaq. Deputatlığa namizədlərdən də bu mənzərəyə etiraz edənlər var.

İmişli rayonundan namizəd olan gənc yazıçı Kəramət Böyükçöl mövzu ilə bağlı mövqeyini belə açıqlayıb: "Ölkədə şəhidlik statusu çox pis bir şəkildə siyasiləşdirilib. Hər namizəd gedib yanına bir şəhid anası alır, ondan istifadə edir, şəkil çəkib paylaşır, saytlarda yaydırır. Biri əlində qərənfil qolunu şəhid anasının boynuna salıb bikef-bikef boynunu elə büküb ki, guya ömür boyu şəhid dərdi çəkib. Bu dəqiqə şəhid anası üstündə namizədlər arasında qırğın gedir. Vallah, utanaram, xəcalət çəkərəm. Mənim şüarlarımdan biri belədir: vicdanı siyasətə gətirək. Öz maraqları üçün şəhiddən, onun ata-anasından bu şəkildə istifadə etmək vicdansızlıqdır".

Şəhid ailələri ilə sıx təmasda çalışan şərqşünas Seyid Camal Əzimbəyli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə duyğularla manevr etmək olmaz: "Neçə gündür bu mənzərəni seyr edirəm, ürəyim doludur. Sizə və qəzetinizə təşəkkür edirəm ki, bu mövzunu gündəmə gətirdiniz. Bilirsiniz ki, biz bir ailə olaraq Qarabağ müharibəsi başladığı gündən daim şəhid ailələri ilə sıx təmasda işləyirik. Bu məni çox üzən mənzərədir. Namizədlər içərisində şəxsən tanıdıqlarım var ki, bir dəfə də olsun şəhid ailəsini ziyarət etməyib. İndi nə oldu ki, həmin adamın yadına şəhid ailəsi düşdü? Bu gün insanların duyğularını istismar etmək lazım deyil. Mən həmin adamlara ayıbdır, durun deyirəm. Bu günlər ərzində onlardan bir neçəsi mənə müraciət edib, açıq şəkildə deyirlər ki, bu mənzərənin dayandırılması ilə bağlı çağırış edim. Biz hər bayram şəhid ailələrini ziyarət edirik. Həmin ailələri il ərzində kimin ziyarət etməsindən məlumatlıyıq. Şəhid kimi müqəddəs adı seçki və siyasət alətinə çevirmək, ən azından, vicdansızlıqdır. Belə manevrləri edənlər bilsinlər ki, Allahın yanında da savab yox, günah və lənət qazanırlar. Həmin adamlara bir sual vermək lazımdır ki, seçkilərə kimi neçə şəhid ailəsi ilə təmasda olublar? Mən bu adamları durmağa çağırıram. Bizim Qarabağ savaşımız hələ bitməyib. Qabaqda da şəhidlərimiz ola bilər. İndidən həmin duyğuları hörmətdən salmağa imkan verməməliyik. Bu çağırışı başqa nüfuzlu adamlar da etməlidirlər ki, şəhid adı ilə manipulyasiyalara son qoyulsun".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənilərin daha bir uydurma "genosid böhtanı" - türklər Bakıda 1918-ci ildə 23 min erməni öldürüb?...

**Uzun illərdir ermənilər "soyqırıma", "kütləvi qırğınlara" məruz qaldıqları barədə cəfəng iddialar meydana atırlar. 1915-ci ildə guya "ermənilərə qarşı soyqırım baş verdiyini", "türklərin erməniləri kütləvi şəkildə qətlə yetirməsi" iddialarının ardından ermənilər indi də tamamilə yeni bir iftira ilə gündəmə gəlməyə cəhd göstərirlər.**



## *Faiq Ələkbərli: "...o dövrdə Antantanın başa çəkdiyi Böyük Britaniya və digər dövlətlər bunu mütləq araşdırardılar"*

Qondarma "erməni soyqırımı"nı təbliğ etməklə əllərinə bir şey keçməyən ermənilər indi də tarixdə baş verməyən digər bir olay uydurmaqdadırlar.

Erməni mediası iddia edir ki, 1918-ci ildə Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusu Bakıya daxil olarkən burada "ermənilərə divan tutub" və "türklər tərəfindən 23 min nəfər erməni qətlə yetirilib". Saxtakarlıqlarda tayları olmayan ermənilərin uydurmasına görə, guya bu "qətliam"ı təsdiq edən "sənədlər" Almaniyanın Xarici İşlər Nazirliyinin arxivində saxlanılır. "Əlimizdə böyük sübutlar var" deyən ermənilər bu yalan məlumatları yaymaqla özlərinin türklərə qarşı törətdikləri qətliamların, soyqırım və kütləvi qırğınların izini itirmək istəyirlər. 1918-ci ildə Bakıda və Azərbaycanın digər şəhərlərində, bölgələrində Azərbaycan türklərinə, eləcə də qeyri-ermənilərə qarşı soyqırımlar, kütləvi qırğınlar törədənlər ermənilər olub. Rus şovinistləri ilə birləşən daşnak qüvvələri Bakıda azərbaycanlılara, müsəlmanlara qarşı amansız qırğınlar törədiblər. Bu qırğınları təsdiq edən sənədləri, fotoları, məhkəmə sənədlərini, şahid ifadələrini, eləcə də digər materialları görmək üçün nə Almaniyaya, nə də başqa xarici ölkəyə getmək lazımdır, həmin sənədlər Azərbaycan arxivlərində mühafizə olunur, hətta çox bir hissəsi də nəşr edilərək ictimaiyyətə çatdırılıb.

Nuru Paşanın rəhbərliyi ilə Bakının harayına yetən Qafqaz İslam Ordusu daşnaklara qarşı mübarizə aparıb, ordu heç zaman dinc erməni əhalisinə "gözün üstə qaşın var" deməyib.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tanınmış tarixçi-alim, tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli "Bakı-Xəbər"ə bildirdi ki, 1918-ci ildə guya 23 min nəfər erməni öldürülməsi növbəti erməni yalanıdır. "1918-ci ildə Qafqaz İslam Ordusu Bakıya daxil olana qədər Bakı Xalq Komissarları Sovetinin tərkibində olan erməni-rus birləşmələri Bakıda, eləcə də Bakıətrafı kəndlərdə, o cümlədən də bölgələrdə kütləvi qırğınlar törədiblər. O dövrdə Məhəmməd Əmin Rəsulzadə yazırdı ki, ən azından, 12 min nəfər türk-müsəlman əhalisi rus-erməni birləşmələri tərəfindən məhv edilib. Şübhəsiz ki, ermənilər yalnız qətllə kifayətlənməyib, türk-müsəlman əhaliyə qarşı insanlığa sığmayan başqa cinayətlər də törətmişdilər. Hamilə qadınların, uşaq və yaşlı insanların amansızcasına qətlə yetirilməsi Qafqaz İslam Ordusu Bakıya gələnəcən baş vermişdi. Bütün türk-müsəlman əhalisi bunun şahidi olmuşdu. Qafqaz İslam Ordusu Bakını rus-erməni birləşmələrindən azad etdikdən sonra dinc ermənilərə deyil, Bakıda türk-müsəlmanlara qarşı amansız qətllər, qırğınlar törədən əlisilahlı daşnak hərbi birləşmələrin məhv edilməsi prosesini həyata keçirmişdi. Bu baş verib, amma bu, dinc əhaliyə qarşı edilməyib. Qafqaz İslam Ordusunun milliyyətindən, dinindən asılı olmayaraq, dinc əhaliyə qarşı hər hansı bir zor tətbiq etməsinə dair məlumatlar yoxdur. Qafqaz İslam Ordusu tərəfindən "Bakıda 23 min erməninin öldürülməsi" iddiası kökündən yanlışdır. Belə olsaydı, onda gərək Bakıda erməni qalmazdı. Çünki həmin dövrdə Bakıda 20-30 mindən artıq erməni yaşamırdı. Yaxşı, onların hamısı Qafqaz İslam Ordusunun gəlişindən sonra öldürülmüşdüsə, sonrakı dövrdə Bakıda yaşayan ermənilər bura haradan gəldilər?"

### *"Bakıda 23 min erməninin öldürülməsi" iddiası kökündən yanlışdır"*

F.Ələkbərli hesab edir ki, "Bakıda ermənilərin öldürülməsi" ilə bağlı iddianı təsdiqləyən hər hansı bir sənəd nəinki Almaniyada, hətta dünyanın heç bir ölkəsində yoxdur. "Bu qırğın baş verməyib ki, onunla bağlı hansısa bir sənəd də olsun. Qafqaz İslam Ordusu tərəfindən Bakıda 23 min erməni qətlə yetirilsəydi, o dövrdə Antantanın başa çəkdiyi Böyük Britaniya və digər dövlətlər bunu mütləq araşdırardılar. Eyni zamanda da 1918-ci ildə Azərbaycan torpaqlarında qurulan Ermənistan Respublikası bunu gündəmə gətirərdi ki, "Qafqaz İslam Ordusu bu sayda erməni qırıb". Amma, faktiki olaraq, ermənilər o dövrdə bu məsələni qaldırmayıblar. Hətta 1920-ci il 27 aprel işğalından sonra da Sovet Ermənistanı tərəfindən də bu "qırğın"la bağlı məsələ səsləndirilməyib. Necə oldu ki, indi ermənilər özlərindən yeni "qırğın" kəşf etdilər? Bu, növbəti erməni yalanıdır və buna heç vaxt dünya ictimaiyyəti inanmaz" - deyə F.Ələkbərli qeyd etdi.

***İradə SARIYEVA***

# Ermənistan Putinin Konstitusiya islahatlarını qaralamağa başlayıb - Qəddafinin faciəsinə istinadlar var...

**Rusiyada Putinin başladığı Konstitusiya islahatlarına Ermənistandan ironik yanaşmmalar ortaya qoyulur. Hətta prosesi qaralamağa cəhdlər də hiss edilir. Ermənistan mediasının aktiv şəkildə apardığı təbliğat bundan ibarətdir ki, Rusiyadakı islahatlar Putinin hakimiyyətdə qalışını uzatmağa hesablanıb.**



## *Zamin Axundov: "Erməni KİV-nin təsir arealı elə də böyük deyil ki, Rusiyadakı proseslərin qarşısını ala bilsin"*

Qeyd edilir ki, Putin Konstitusiyaya hörmət adı ilə bir daha Prezident seçilmək istəmir, ancaq Federal Məclisə geniş səlahiyyətlər verib, həmin quruma rəhbərlik etməyi düşünür.

Maraqlıdır ki, erməni mediası bir qədər də uzağa gedərək, Putinlə Liviyanın öldürülən prezidenti Qəddafi arasında da paralel aparıb. Bildirilir ki, Putin 2010-cu ildə hakimiyyətdən getmək istəyirmiş, ancaq Qəddafi ilə bağlı səhnəni seyr edəndən sonra hakimiyyətdə daha çox müddətə qalmağı seçdi. Məqalədə bildirilir ki, adətən Rusiya ölkənin xaricində müharibəyə başlayanda belə köklü dəyişikliklər edir. İddia olunur ki, Rusiya hansısa yeni müharibəyə başlamağı düşünür. Çox maraqlıdır, Ermənistan niyə Rusiyada aparılan islahatlardan bu şəkildə narahatlıq ifadə edir və həmin addımları qaralamaqla məşğul olur?

Politoloq Zamin Axundov qəzetimizə bildirdi ki, Ermənistandakı bu narahatlığın əsaslı səbəbləri var: "Əslində, bu narahatlıq xalqın səsi deyil. Çünki sadə xalq Rusiya ilə münasibətlərin normal olmasını istəyir. Ermənistandakı iqtisadi böhran həmin ölkənin vətəndaşlarını daha çox Rusiyada çalışmağa vadar edib. Ermənistan bir ölkə olaraq isə Rusiyanın forpostudur. Buna kiminsə şübhəsi yoxdur. Həmin ölkənin sərhədlərini Rusiya hərbçiləri qoruyurlar. Ermənistan ərazisində Rusiyanın böyük hərbi bazası mövcuddur. Yəni Ermənistan, faktiki olaraq, özünü Rusiyanın bir parçası sayır. Orada baş verən dəyişikliklərin Ermənistana da təsirinin olacağına şübhələri yoxdur. Əslində, bu, narahatlıqdan çox şantaja bənzəyir. Bunu da edən Paşinyan və ətrafıdır. Onlar ABŞ və Qərbə meyllənib, özlərinə maliyyə cəlb etmək istəyirlər. Amma buna da Rusiya imkan vermir. Rusiyanın yanında qalanda isə ac olurlar. Məhz bu çıxılmaz vəziyyət onları vadar edir ki, müəyyən manevrlər etsinlər. Bununla Paşinyan anti-Rusiya qüvvələrinə Ermənistandakı ovqatın onların xeyrinə işlədiyini göstərmək istəyir. Praktik olaraq isə Rusiyada baş verə biləcək hər hansı dəyişiklik Ermənistanı buxovdan azad edən deyil. Ermənistan Rusiyanın iradəsi xaricində belə addım atmaq istəsə, Moskva dərhal status-kvonu bizim xeyrimizə dəyişə bilər. Bu baxımdan da Ermənistanda edilənlər imitasiyadan başqa nəsə deyil. Eyni zamanda, erməni KİV-nin təsir arealı elə də böyük deyil ki, Rusiyadakı proseslərin qarşısını ala bilsin. Bu, kənardan durub gedən karvana doğru səs salmağa bənzəyir".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycanda radikal partiya rəhbərləri 20 Yanvar hüzn izdihamını da siyasiləşdirməyə cəhd etdilər

**20 Yanvar günü Şəhidlər Xiyabanında siyasi şou düzəldən radikal müxalifət bir daha sübut etdi ki, onlar öz ambisiyaları naminə hətta ən müqəddəs dəyərləri belə qurban verməyə hazırdırlar. Ümumxalq Hüzn günündə siyasi şüarlar səsləndirmək, bilərkdən polisi təxribata sürükləməyin başqa adı yoxdur.**

*"Bu kimi cəhdlər onları bir az da cəmiyyətdə hörmətdən salır"*

***Məhərrəm Zülfüqarlı:*** *"Radikal müxalifət belə bir gündən siyasi məqsədlər üçün istifadə edirsə..."*

Hansı ki, istər ötən il, istərsə də bu il biz radikal müxalifətin timsalında bunu gördük. Uzun müddət ən güclü hazırlaşdıqları mitinqə belə 3 min insan toplaya bilməyən radikallar Hüzn günündən siyasi məqsədlər üçün istifadə etməyə çalışdılar. Ümumilikdə, 20 Yanvar hadisəsinin ildönümündə hay-küy salıb gündəm yaratmaq radikallar üçün bir "ənənəyə" çevrilib. Bütün vətəndaşların riayət etdiyi qaydaları pozub süni çaxnaşma yaradan radikallar, görünür, bunun üçün xüsusi hazırlıq görürlər.

Radikallar polisin onların özbaşınalığına göz yummayacağını bildikləri üçün, əllərindən gələni edirlər ki, saxlansınlar. Sonra da avtobusda selfi çəkib göstərsinlər ki, guya təzyiqə məruz qalıblar. Halbuki, Ümumxalq Hüzn günündə şəhidlərin xatirəsini yad etməyə gələn insanları nəyəsə təhrik etmək və bundan siyasi məqsədlər üçün istifadə etmək, ən azından, tərbiyəsizlikdir. Bu, şəhidlərin ruhuna hörmətsizliklə yanaşı, siyasi əxlaqsızlıqdır.

Bu dəfə də radikal müxalifət öz "ənənəsinə" sadiq qalaraq 20 Yanvar Ümumxalq Hüzn günündən siyasi məqsədlər üçün istifadə etməyə cəhd etdi. Radikal müxalifət təmsilçiləri müxtəlif açıqlamalar veriblər ki, guya polis onlara şəhidləri yad etməyə maneələr yaradıb, qrup şəklində iştirak etmələrinə imkan verilməyib və s. Görünən odur ki, yenə də radikallar 20 Yanvar Hüzn günündən siyasi məqsədlər üçün istifadə etmək taktikasından əl çəkməyiblər.

Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, Ümumxalq Hüzn günündən siyasi məqsədlər üçün istifadə etmək radikal müxalifətə hörmət gətirmir: "Əksinə,




onları cəmiyyətdə daha da hörmətdən salır. Çünki Hüzn günündə bütün millət öz şəhidlərini yad edir. Ona görə də belə bir gündə hamı təmkinli olmalıdır. Ən başlıcası, asayişi pozmaq, polisə müqavimət göstərmək ümumiyyətlə lazım deyil. Çünki polis də öz vəzifəsini icra edərək asayişi qoruyur. Hər il yanvarın 20-də sözügedən mərasimdə təkcə Azərbaycan vətəndaşları deyil, kənardan gələnlər də orada iştirak edirlər. Başqa bir tərəfdən, Azərbaycanı sevməyən dairələr var. Onlar öz təxribatçı qüvvələrini ora göndərmək istəyərlər. Ona görə də orada iştirak edən bütün şəxslər çalışmalıdırlar ki, asayiş qorunsun. O cümlədən, siyasi partiyaların üzərinə bu məsələdə böyük məsuliyyət düşür. Radikal müxalifət belə bir gündən siyasi məqsədlər üçün istifadə edirsə, bu onlara hörmət gətirməz. Bu kimi cəhdlər onları bir az da cəmiyyətdə hörmətdən salır. Nəzərə almaq lazımdır ki, radikal müxalifət cəmiyyət içində sosial dayaqlarını itirib. Bu kimi təxribatlarla onlar nəyəsə nail ola bilməyəcəklər. Əksinə, özlərini daha da urvatsız duruma sürükləyirlər".

**Vidadi ORDAHALLI**

# Qorbaçova cinayət işinin açılması Azərbaycan cəmiyyətinin ümumi tələbinə çevrilib...

**1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə SSRİ-nin ilk və son prezidenti Mixail Sergeyeviç Qorbaçovun birbaşa göstərişi ilə sovet qoşunlarının Bakıda dinc, silahsız, əliyalın Azərbaycan xalqına qarşı törətdiyi kütləvi qırğın hadisəsinə görə hələ nə Qorbaçov, nə də onun əmrinin həyatda olan icraçıları cinayət məsuliyyətinə cəlb edilməyiblər.**



***Əziz Qənbərov:*** *"Gec də olsa Qorbaçova cinayət işi açılmalıdır və bunun üçün hüquqi, siyasi əsaslar da var"*

***Rauf Zeyni:*** *"Qorbaçova cinayət işinin açılması mümkündür"*

20 Yanvar faciəsinin törədilməsindən 30 il keçib və cinayətkarın cəzasına çatdırılmaması, onun(ların) ədalət məhkəməsi qarşısında cavab verməməsi cəmiyyətimizdə ciddi narazılıq doğurub. Artıq Azərbaycan vətəndaşları tələb edirlər ki, SSRİ-ni dağıtdığına və yüzlərlə insanın qətlinə fərman verdiyinə görə aldığı "Nobel" mükafatının arxasında gizlənən Qorbaçovun 30 il əvvəl Bakıda tökdüyü qanlara görə cinayət məsuliyyətinə cəlb olunması, bunun üçün də cinayət işi açılması vacibdir. Bu gün Azərbaycan cəmiyyətində, KİV-də, eləcə də sosial şəbəkələrdə bununla bağlı ictimai tələblərin miqyası genişlənməkdədir. Qorbaçovun əməlləri ilə bağlı cinayət işinin açılması üçün kifayət qədər əsaslar olduğunu deyən hüquqşünaslar hesab edirlər ki, 30 il o, cinayət məsuliyyətindən yaxa qurtara bilsə də, indən sonra onun belə bir fürsəti olmamalıdır.

Tanınmış hüquqşünas Əziz Qənbərov "Bakı-Xəbər"ə bildirdi ki, Qorbaçovun 30 ildir cinayət məsuliyyətinə cəlb edilməməsi mənfi bir haldır. Ə.Qənbərovun sözlərinə görə, gec də olsa, Qorbaçovun əməlləri ilə bağlı cinayət işi açılmalıdır. "Əslində, 30 il əvvəl Bakıda Azərbaycan vətəndaşlarına qarşı törədilən cinayət hadisəsinin, qətliamın, kütləvi qırğının müəllifi olan Qorbaçovun əməlləri ilə bağlı cinayət işi açılmasına gecikmişik. Onunla bağlı cinayət işi çoxdan açılmalı idi. Qorbaçovun göstərişi, əmrilə Bakıda baş verən faciə, tökülən qanlar cavabsız qalmalı deyildi, Qorbaçov buna görə həbs edilməli idi. Qorbaçovun göstərişi ilə Bakıda törədilən qırğın dinc insanlara qarşı törədilən ən qanlı aktlardan biri kimi tarixə düşüb. Bir Azərbaycan vətəndaşı, hüquqşünası, ata-baba yurdundan didərgin düşən bir ziyalı kimi Qorbaçova qarşı cinayət işinin açılmasını çox arzulayıram. Eyni zamanda, onunla yanaşı, 20 Yanvar qırğınında əli olan hər kəs öz layiqli cəzasını almalıdır. Bunun üçün də mən əlimdən gələni etməyə hazıram. Hesab edirəm ki, Qorbaçov başda olmaqla, 20 Yanvar faciəsini törədən şəxslərin törətdikləri cinayətlərlə bağlı bir komissiya yaradılmalıdır. Bu komissiya Qorbaçovun cinayətkar əməllərini araşdırmalı, onu beynəlxalq aləmə yaymalı, sonra isə onunla bağlı cinayət işinin açılmasına nail olmalıdır. Bunu Azərbaycan xalqı və ictimaiyyəti tələb edir. Gec də olsa Qorbaçova cinayət işi açılmalıdır və bunun üçün hüquqi, siyasi əsaslar da var".

Milli Qeyri-Hökümət Təşkilatları Forumunun rəhbəri Rauf Zeyni isə məsələyə fərqli yanaşır. O hesab edir ki, Qorbaçovun əməlləri ilə bağlı cinayət işinin açılmasına nail olmaq heç nə əldə edə bilməyəcəyik. "Məlumdur ki, 20 Yanvar hadisəsinin baş cinayətkarı Qorbaçovdur. Qorbaçova cinayət işinin açılması mümkündür. Amma mən Azərbaycan xalqının potensialının daha səmərəli istifadəsinin tərəfdarıyam. Biz torpaqlarımızı işğaldan azad etmək üçün daha önəmli işlər görməliyik, nəinki Qorbaçov haqqında cinayət işi açılması kimi perspektivsiz bir işin dalınca düşməliyik. Biz dünyada ölkəmizlə bağlı daha vacib işlər görməliyik" - deyə R.Zeyni qeyd etdi.

***İradə SARIYEVA***

# Azərbaycanın böyük nəqliyyat-tranzit imkanları Davos Forumunun gündəmində mühüm yer tutdu

**İsveçrənin Davos şəhərində işə başlayan 50-ci Dünya İqtisadi Forumu yenidən beynəlxalq miqyasda xüsusi diqqət mərkəzindədir. Məlumat üçün bildirək ki, "Birgə və davamlı dünyanın maraqlı tərəfləri" mövzusunda keçirilən foruma 117 ölkədən 2 mindən çox siyasətçi, akademik, iş adamı və qeyri-hökumət təşkilatlarının nümayəndəsi qatılıb.**

Forum çərçivəsində 400-dən çox açıq və qapalı iclas keçiriləcək. Yanvarın 24-dək davam edəcək Dünya İqtisadi Forumunda 50-dən çox ölkə prezident və baş nazir səviyyəsində təmsil olunur. Azərbaycan da tədbirdə prezident səviyyəsində təmsil olunur.

Dünya İqtisadi Forumu, həmçinin, dünyanın hər yerindən 119 milyarderi bir araya gətirib. Həmin milyarderlərin ümumi sərvəti 500 milyard dollardan çoxdur. Məhz belə bir tədbirdə Azərbaycanın prezident səviyyəsində təmisl olunması, dövlət başçısının burada keçirdiyi çoxsaylı görüşlər ölkəmizə diqqəti daha da artırır. Forum çərçivəsində diqqət mərkəzində olan məsələlərdən biri isə Azərbaycanın nəqliyyat və tranzit imkanları ilə bağlı olub. Bunlardan biri də Lapis-Lazuli marşrutu olub. Əfqanıstanın iqtisadiyyat naziri Mustafa Mastur bildirib ki, "Lapis-Lazuli" layihəsinin üzərində işlər uğurla davam etdirilir: "Lazurit" nəqliyyat layihəsi üzərində işlər uğurla davam edir. 2018-ci ilin dekabrında başlamış bu layihə sayəsində Əfqanıstandan artıq iki dəfə yük nəql edilib. Bu layihə üzərində çalışan bütün ölkələrə, o cümlədən Azərbaycana minnətdarıq. Layihənin başa çatdırılması məqsədilə viza, gömrük və bu kimi digər inzibati məsələləri həll etmək üzrəyik. Bundan sonra layihənin uğurlu fəaliyyətini təmin etmiş olacağıq". Nazir Azərbaycanın böyük potensialı olan ölkə olduğunu və Əfqanıstanda bir çox sahələrin inkişafına öz töhfəsini verə biləcəyini bildirib:




"Azərbaycanla Əfqanıstan arasında əlaqələr həmişə yüksək səviyyədə olub və bu gün ikitərəfli əlaqələrimiz tarixdə ən parlaq dövrünü yaşayır. Hesab edirəm ki, Azərbaycan Əfqanıstanla bağlı müxtəlif məsələlərdə, xüsusilə ölkənin siyasi və iqtisadi həyatında daha yaxından rol oynaya bilər. Bunun üçün Azərbaycan böyük potensiala malikdir. Azərbaycan Əfqanıstanda sülhün bərpa olunmasına öz töhfəsini verə bilər. Bundan başqa, neft-qaz, nəqliyyat məsələlərində Azərbaycan böyük uğurlar əldə edib. Turizm sahəsində də Azərbaycan güclüdür və öz təcrübəsi sahəsində Əfqanıstana investorlar cəlb edə bilər".

Xatırladaq ki, Lapis-Lazuli marşrutuna dair beştərəfli saziş 2017-ci ildə Əfqanıstana dair regional iqtisadi əməkdaşlıq konfransında Əfqanıstan, Türkmənistan, Azərbaycan, Gürcüstan və Türkiyə arasında imzalanıb. Sazişdə iştirakçı ölkələrin nəqliyyat infrastrukturunun modernləşdirilməsi, həmçinin gömrük prosedurlarının asanlaşdırılması nəzərdə tutulur. Avtomobil, dəmir yolu və dəniz marşrutu ilə yükdaşımalarını ehtiva edən Lazurit dəhlizi yüklərin Əfqanıstandan və Asiyadan Avropaya çatdırılması üçün ən əlverişli və ucuz marşrutdur. Məhz belə bir vaxtda ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Metyu Brayza maraqlı bir açıqlama ilə çıxış edib. O, təkcə Lapis-Lazuli yox, ümumiyyətlə Azərbaycan üzərindən keçən digər marşurutların da xüsusi maraq doğurduğunu vurğulayır: "Xəzər dənizi vasitəsilə nəqliyyat dəhlizlərinin genişləndirilməsi region üçün böyük əhəmiyyət kəsb edən məsələdir... Burda ən əhəmiyyətli məsələ Xəzər regionunda Xəzər dənizi vasitəsilə nəqliyyat dəhlizlərinin genişləndirilməsi məsələsidir. Bu mövzu mənə çox yaxındır və məni 20-25 il bundan əvvəllərə qaytarır. Yadıma düşür ki, biz Azərbaycan hökuməti, Heydər Əliyev, neft şirkətləri ilə Bakı-Tiflis-Ceyhan əsas ixrac boru kəməri layihəsi üzərində necə işləyirdik. Bu mənada, Dünya İqtisadi Forumu çərçivəsində keçirilən "Xəzər Həftəsi: Qlobal İdeyalar Platforması" yaradıcı fikirlərin, qlobal ideyaların platformasıdır".

Hazırda bu məsələyə Avropa da böyük maraq göstərir. Belə ki, Avropa strukturları bəyan edir ki, Türkmənistan, Azərbaycan, Gürcüstan və Rumınıyanın iştirak etdiyi Xəzər dənizi-Qara dəniz marşrutunun inkişafında maraqlıdırlar.

Xəzər dənizi-Qara dəniz dəhlizinin fəaliyyət göstərməsi üçün əlverişli şəraitin yaradılmasına kömək edəcək milli səviyyədə normativ-hüquq aktlarının hazırlanması və tətbiq edilməsi, "Şərq-Qərb" istiqamətində iqtisadi əməkdaşlığın gücləndirilməsi yönündə artıq Avropa konkret addımlar atmağa hazır olduğunu bəyan edir.

**Elə bu fonda da Lapis-Lazuli marşrutundan daha geniş miqyasda istifadə aktuallaşır. Bu durumda Azərbaycanın Avropa və dünya üçün də əhəmiyyəti artır. Çünki perspektivdə Lapis-Lazuli ilə daşımaların Bakı-Tiflis-Qars dəmir yolu xəttinə birləşməsi gözlənir. Bu da Azərbaycanın tranzit potensialını daha da artırmasını şərtləndirir. Bununla isə Azərbaycan getdikcə daha çox ölkə üçün mühüm tranzit məkanına çevrilir.**

***Ramil QULİYEV***

# Ermənistanda siyasi qətllər dövrü başlanır - Paşinyanın ilk DTX rəhbərinin gözləri yollarda...

**Ermənistanın Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru Georgi Kutoyanın qətli ətrafında baş verənlər ortaya yeni maraqlı vəziyyət çıxarıb. Xatırladaq ki, Kutoyan 2016-cı ilin fevralından 2018-ci ilin mayına qədər Milli Təhlükəsizlik Xidmətinə rəhbərlik edib. Onu həmin postda "məxməri inqilabdan" sonra Artur Vanetsyan əvəzləmişdi.**

Baş nazir Nikol Paşinyanın müraciətindən sonra Ermənistan prezidenti Arman Sarkisyan onu tutduğu vəzifədən azad etmişdi.

İstintaq Komitəsinin rəsmisi Artur Melikyan bildirib ki, Kutoyan gicgahından dəyən güllə ilə ölüb. Lakin otaqda çoxsaylı güllələr və boş gilizlər, divarda güllə izləri aşkar edilib. Bu isə onun qətlə yetirilmə ehtimalını əhəmiyyətli dərəcədə artırır. "Vahid Ermənistan" partiyasının sədri Artur Qazinyan məsələ ilə bağlı bildirir: "Georgi Kutoyanın faciəli ölümü Ermənistanın bütün ictimai-siyasi həyatını silkələyib". O qeyd edib ki, bundan əvvəl ictimaiyyətin diqqətini "güclü və görünməz" əlin Kutoyanı Böyük Britaniyadakı təhsilini buraxmağa və Ermənistana qayıtmağa məcbur etməsinə yönədib: "Kutoyanın onu bu addıma təhrik edən necə mənəvi və psixoloji təzyiq altında olduğunu yalnız təsəvvür etmək olar. Kutoyan bir neçə il Ermənistanın üçüncü prezidenti Serj Sarkisyanın köməkçisi olub, Ermənistanın bütün məhkəmə-hüquq sistemini əlaqələndirib, birbaşa olaraq rəhbərin tam inam və rəğbətini qazanıb. Daha sonra bu inam əsasında Ermənistan Milli Təhlükəsizlik Xidmətinin direktoru təyin edildi. Şübhəsiz o, böyük həcmdə məlumata sahib idi və Ermənistanın həm indiki, həm də keçmiş hakimiyyəti üçün əvəzsiz dəyər təqdim edirdi. Kutoyana qarşı hər hansı cinayət işi açılmamışdı, ona qarşı axtarış elan olunmamışdı, lakin hansısa qüvvə onu perspektivli təhsilini buraxmağa və cəhənnəmə - yeni Ermənistana qayıtmağa məcbur etdi.

Ermənistanın üçüncü prezidenti Serj Sarkisyanın hüquq sahəsini koordinasiya edən digər köməkçisi Gevorq Kostanyan idi ki, o da Serj Sarkisyanın tam etimadını qazanırdı. Daha sonra o, Ermənistanın baş prokuroru təyin olundu. Şübhəsiz, Kostanyan da dəyərli məlumatlara sahibdir, indiki və keçmiş hakimiyyət üçün heç də az əhəmiyyət kəsb etmir.

Kutoyandan fərqli olaraq, Kostanyana qarşı cinayət işi açılıb, beynəlxalq axtarış elan edilib və Ermənistanın yeni hakimiyyəti onu Ermənistana qaytarmaq üçün hüquqi təzyiq vasitələri tətbiq edir.

Kostanyana qarşı irəli sürülmüş ittihamın əsaslandırılmasını bir kənara qoyaraq həmin qüvvələrin Kutoyanın öz həyatı hesabına vermədiyi şeyi Gevorq Kostanyandan almağa cəhd edəcəklərinə diqqət yetirmək lazımdır. Nəticə etibarilə, Ermənistanın bütün siyasi və ictimai qüvvələri diqqətini yaxın gələcəkdə Kostanyan ətrafında baş verəcəklərə yönəltməlidir. Hər halda, məhz Gevorq Kostanyan keçmiş və indiki hakimiyyətin mübarizəsinin epimərkəzində olacaq". Partiya sədrinin bu açıqlamalarından belə bəlli olur ki, əslində, Paşinyan hakimiyyəti onun üçün təhlükəli sayılan fiqurları ya qətlə yetirir, ya da həbsə atdırır.



Eyni zamanda, Kutoyana qarşı sui-qəsd Ermənistanın daxili siyasi həyatındakı özünəməxsus bir şəraitdə, daxili həyatın əsasən inqilabdan sonraki yenidən qruplaşma mərhələsində olduğu bir dövrdə baş verir. Maraqlıdır ki, Kutoyanın müəmmalı ölümündən sonra MTX-nin sabiq direktoru Artur Vanetsyan öz təhlükəsizlik xidmətini gücləndirib. Siyasi ekspert Armen Badalyan məsələ ilə bağlı bildirir:"Ermənistan Milli Təhlükəsizlik Xidmətinin sabiq direktorunun son zamanlar aktivləşməsindən Paşinyan iqtidarı narahatdır. İndilikdə onun aktiv siyasətə girməsindən əvvəl hakimiyyət Vanetsyanın reytinqini aşağı salmaq üçün müxtəlif vasitələrdən istifadə etmək qərarına gəlib". O bildirib ki, Nikol Paşinyanın qurduğu siyasi sistem Milli Təhlükəsizlik Xidmətinin sabiq direktoru Artur Vanetsyanın timsalında siyasi alternativə dözməyəcək. Badalyan qeyd edib ki, Vanetsyanın Milli Təhlükəsizlik Xidmətinin direktoru vəzifəsindən uzaqlaşmaq barədə birmənalı olmayan bəyanatından sonra o, nisbətən passiv mövqedə olsa da, siyasi səhnədədir: "Siyasətə daxil olmaq üçün yalnız bəyanatlar vermək kifayət deyil. Bu, zəruri şərtlər, əlverişli hallar tələb edən mürəkkəb prosesdir. Keçmişdə toplanmış kapitalı çox asan dağıtmaq olar və sonra onu toplamaq mümkünsüz olacaq".

Ermənistanda baş verən hakimiyyət dəyişikliyindən sonra Artur Vanetsyan Milli Təhlükəsizlik Xidmətinin direktoru vəzifəsində məhz Kutoyanı əvəz edib. Amma onun da Paşiynana dirənişi və müəyyən məlumatlara sahib olması bu şəxsin Kutoyanın taleyini yaşayacağını istsina etmir. Məhz bu fonda aydın görünür ki, Paşinyan təhlükəli saydığı fiqurları qətlə yetirməkdən belə çəkinmir.

Ermənistanın "İrates" nəşri yazır ki, Paşinyanın komandasında belə vəziyyət sabit deyil:"Nikol Paşinyanın öz komanda yoldaşlarına qarşı inamsızlığı getdikcə dərinləşir. Heç təsadüfi deyil ki, o, "məsuliyyətli" işləri yalnız öz ailə üzvlərinə etibar edir". Nəşrin əldə etdiyi məlumatlara görə, Paşinyanı ən çox narahat edən məsələ onun komandasının bəzi üzvlərini başqa siyasi qüvvələrlə, nümayəndələrlə "oyunlar" oynamağa başlamasıdır və uyğun anda onlar "cəbhəni" dəyişdirə və Paşinyanı tək edə bilərlər: "Bu mənada Artur Vanetsyana ünvanlanmış sərt tənqid dalğasının dərinlikdə başqa məqsədi də var. Paşinyanın komandası daxilində bəzi şəxslər Vanetsyandan daha üsyankar ola və Ermənistan Milli Təhlükəsizlik Xidmətinin sabiq rəisinin hələ ki deyə bilmədiyi şeyləri açıqlaya bilərlər. Buna paralel olaraq, "Mənim Addımım" fraksiyasında deputatlar var ki, Vanetsyan qanadında çırpınırlar, başqa sözlə desək, daxildən ona yardım edirlər".

***Nahid SALAYEV***

**Dünya iqtisadiyyatının yeni böhran astanasında olması və bunun ölkələrə necə təsir edəcəyi indi xüsusi müzakirə mövzularından birinə çevrilib. Məhz belə bir vaxtda Beynəlxalq Valyuta Fondunun (BVF) icraçı direktoru Kristalina Georgiyeva əhali arasındakı bərabərsizliyin yeni "Böyük depressiya"ya səbəb olacağını açıqlayıb.**

# Dünyanı bürüyəcək "Böyük depressiya"nın kökü - əhali arasında dəhşətli bərabərsizlik və Azərbaycanın etibarlı sığortası...

BVF-in icraçı direktoru son 20 ildə müşahidə edilən ölkələr arasındakı bərabərsizliyin azalması fonunda fərqli əhali qrupları arasında bərabərsizliyin nəzərəçarpacaq dərəcədə artdığını qeyd edib.

O, Böyük Britaniyadakı vəziyyəti nümunə göstərərək deyib ki, burada ölkə əhalisinin 10 faizi yoxsul təbəqənin yarısının ümumi əmlakı ilə müqayisə olunacaq sərvətlərə nəzarət edir. Oxşar problem Avropa Birliyi üzvlərinin əksəriyyətində, o cümlədən Fransa və Almaniyada, həmçinin ABŞ, Avstraliya, Yaponiya, Cənubi Koreya və digər inkişaf etmiş ölkələri birləşdirən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının digər ölkələrində də müşahidə olunur. BVF rəhbərinin sözlərinə görə, həddindən artıq bərabərsizlik iqtisadi artıma mane olmaqla yanaşı, populizm və siyasi qeyri-sabitliyə də səbəb olur: "Bu həyəcanverici tendensiya bir növ XX əsrin əvvəllərindəki texnologiyanın və inteqrasiyanın inkişafı ilə başlayan "qızıl əsri", sonra isə "hönkürən" iyirminci illəri, nəhayət maliyyə fəlakətini xatırladır". O əlavə edib ki, vəziyyət iqlim böhranı və proteksionizmin güclənməsi ilə daha da çətinləşir. Nəticədə maliyyə bazarındakı qeyri-sabitliyin və sosial iğtişaşların qarşıdakı on il üçün xarakterik olacağı ehtimalı yüksəkdir.

Xatırladaq ki, XIX əsrin sonlarını ABŞ iqtisadiyyatının sürətli inkişafı səbəbindən "qızıl suyuna çəkilmiş əsr" adlandırırlar. Birinci Dünya Müharibəsi başa çatandan sonra iqtisadi çiçəklənmə və mədəni rifahın baş verdiyi onillik "hönkürən iyirminci illər" adlandırılır. Bu dövr 1929-cu ildə birjanın çökməsi ilə başa çatıb, bunun ardınca tarixdəki ən böyük qlobal iqtisadi böhranlardan biri olan "Böyük depressiya" baş verib. Daha əvvəl Georgiyeva qlobal iqtisadiyyatın inkişafının ləngidilməsini təklif etmişdi. O, korporativ borcun artacağını proqnozlaşdırır və bu vəziyyəti ticarət müharibələrinin mənfi nəticəsi adlandırırdı. Amma görünən budur ki, baş verənlər yeni böhranın olcağını istisna etmir və bu, dünya ölkələrinə ciddi şəkildə təsir edəcək. Amma Azərbaycan bundan sığortalanan ölkələr sırasında yer alanlardan biri sayılır.

Xatırladaq ki, əvvəlki böhranların da ölkəmizə təsiri böyük olmamışdı. Hətta indinin özündə belə 2020-ci ildə Azərbaycanın iqtisadi artım tempinin 3 faizə çatması gözlənilir. 2021-ci ildə iqtisasi artım 3.7 faizə yüksələcək. Beynəlxalq maliyyə qurumları da bildirir ki, Azərbaycanda həyata keçirilən düşünülmüş iqtisadi siyasət öz nəticələrini verir.

Dünya Bankının açıqladığı son hesabata əsasən də Azərbaycanda real ÜDM-nin artımı 2020-ci il üzrə 3,3% olaraq müəyyən olunub. Beynəlxalq Valyuta Fondunun da proqnozu buna yaxındır. Ölkədə cari il ərzində artan qaz hasilatı, qeyri-neft sektoru üzrə ixracın artımı öz nəticələrini verir. Qeyri-neft sektoru iqtisadi inkişafda artıq aparıcı məqama çevrilməkdədir. Artıq ÜDM-in üçdə ikisindən çoxu qeyri-neft sektorunun payına düşür. Qeyri-neft sektorunun payının artması növbəti illərdə, eləcə də 2020-ci ildə həm büdcə gəlirlərində, həm ÜDM-də, həm də Azərbaycanın ümumi ixracatında qeyri-neft sektorunun payının faiz ifadəsində əvvəlki ilə nisbətən artmasına səbəb olacaq. İqtisadiyyatın leqallaşdırılması və kölgə iqtisadiyyatına qarşı mübarizənin gücləndirilməsi artıq dövlət büdcəsinə vergi daxilolmalarının mühüm yüksəlişinə rəvac verir. Kölgə iqtisadiyyatına qarşı mübarizə, qeyri-rəsmi məşğulluğun aradan qaldırılması ilə bağlı həyata keçirilən fəaliyyətlər təkcə ötən il 160 mindən artıq yeni əmək müqaviləsinin bağlanması deyil, eyni zamanda dövlət büdcəsinə daxil olan vəsaitin həcminin artması ilə müşahidə olundu ki, bu da büdcədə vergidən daxilolmaların payının artmasına səbəb oldu. Azərbaycanın valyuta ehtiyatlarının 50 milyard dollardan yüksək olması da burada öz sözünü deyir. O da mühümdür ki, bir tərəfdən dövlət rezervlərinin həcmində artım var, digər tərəfdən xarici borcun həcmində azalma var. Dövlət rezervlərinin xarici borcdan beş dəfə çox olması da ondan xəbər verir ki, bu gün valyuta ehtiyatları, xüsusən hər hansı xarici şoklar yaranan zaman,



**Azərbaycan üçün iqtisadi təhlükəsizliyin təmin edilməsinə imkan verəcək. Bu konteksdən makroiqtisadi sabitliyin qorunması, o cümlədən ticarət balansındakı saldonun gözlənilməsi Azərbaycana əlavə üstünlüklər qazandırır. Bütün bunlar 2020-ci il üçün nikbin proqnozların verilməsinə imkan yaradır. Yalnız Azərbaycan hökuməti deyil, bütün beynəlxalq maliyyə qurumları 2020-ci ildə Azərbaycanda iqtisadi artım tempinin davam edəcəyini, təxminən 3 faizlik iqtisadi artımın qeydə alınacağını proqnozlaşdırır.**

***Tahir TAĞIYEV***

# İkinci Dünya Müharibəsində Sovet rəhbərliyindəki şovinistlər Bakının haqqını yemişdilər, heç olmasa indi haqq öz yerini tutsa...

***Vaqif Abışov:** ”Paytaxtımıza ”Əmək Şücaəti Şəhəri” adı verilərsə, bu onun əməyini, zəhmətini, Böyük Vətən Müharibəsində qələbənin qazanılmasında oynadığı rolu tam ifadə edə bilməsə də, amma yenə də, az da olsa, bu onun haqqının qaytarılması olardı”*

**Böyük Vətən Müharibəsində qələbənin əldə edilməsində Bakının mühüm və həlledici rolu olduğu hər kəsə məlumdur. Lakin SSRİ böyük tarixi ədalətsizliklərə yol verərək Bakıya "Qəhrəman şəhər" statusu vermədi. Ancaq bəzi şəhərlər olub ki, onlar Böyük Vətən Müharibəsində qələbənin təmin olunmasında paytaxtımızdan az rola malik olub, amma onlar "Qəhrəman şəhər" statusunu qazanıblar.**

Halbuki, buna Bakının daha çox haqqı çatırdı. Bakıya "Qəhrəman şəhər" statususunun verilməməsinin əlbəttə, müxtəlif siyasi, ideoloji səbəbləri vardı. Buna ən çox mane olan qüvvələr SSRİ rəhbərliyində təmsil olunan şovinistlər, millətçilər, anti-Azərbaycan qüvvələri, əsasən də ermənilər idi. Ermənilər və rus millətçiləri heç bir vəhclə Bakının "Qəhrəman şəhər" statusu qazanmasını istəmirdilər.

Bu səbəbdən də Bakı çox böyük haqqı olsa da, bu statusu ala bilmədi. SSRİ dövründə Bakıya "Qəhrəman şəhər" statusu verilməməsinə bəzi rus tarixçi və dövlət xadimləri də təəssüflə yanaşırlar. Onlar hesab edirlər ki, hər hansı bir yolla, Bakının haqqı özünə qaytarılmalıdır.

Böyük Vətən Müharibəsinin 75 illiyi münasibətilə Bakıya yeni status verilməsi Rusiya Dumasında müzakirəyə çıxarılıb. Rusiya Dövlət Dumasının deputatı Dmitri Savelyev deyib ki, Bakıya "Əmək Şücaəti Şəhəri" adı verilməsi gündəmdədir: "2020-ci ildə Böyük Vətən Müharibəsində Qələbənin 75 illiyi qeyd ediləcək. Bununla əlaqədar Rusiya Dövlət Dumasında sakinlər hərbi və mülki istehsal müəssisələrində fasiləsiz istehsal təmin edən, kütləvi əmək qəhrəmanlığı nümayiş etdirən şəhərlərə "Əmək Şücaəti Şəhəri" adı verilməsi üçün hüquqi əsaslar yaradan qanun layihəsi müzakirə edilir...

Nəzərə alınmalıdır ki, postsovet məkanında olan şəhərlər də bu ada layiqdir. Məsələn, Bakıya qəhrəman şəhər adının verilməsi məsələsi bir neçə dəfə müzakirə edilib. İkinci Dünya Müharibəsi zamanı Bakı sakinləri gecə-gündüz çalışıb Sovet tanklarını və təyyarələrini yanacaqla təmin ediblər. Müharibə illərində Azərbaycanda "Stalinqradımız hər quyudadır" plakatları asılmışdı və bu elə belə idi. Sovet ordusuna lazım olan bütün yanacağın 80%-i buradan gəlirdi" - D.Savelyev bildirib.

Bakıya "Əmək Şücaəti Şəhəri" adı, statusu verilməsi məsələsinə yanaşmalar müxtəlifdir. Bəzi tarixçilər və politoloqlar hesab edir ki, bu status Böyük Vətən Müharibəsinə həm nefti, həm digər təbii resursları, həm də canlı insan qüvvəsilə töhfə verən Bakının əməyinə adekvat, bəziləri isə əksini düşünür. Onlar hesab edir ki, Bakıya "Qəhrəman Şəhər" statusu verilməsə də, "Əmək Şücaəti Şəhəri" adı verilməsi heç olmasa az da olsa paytaxtımızın əməyinə verilən qiymət olardı.

Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru Vaqif Abışov hesab edir ki, paytaxtımıza "Əmək Şücaəti Şəhəri" adının verilməsi ilə bağlı keçirilən müzakirələr nəticəsində Bakıya bu status verilərsə, bu Bakı üçün kiçik bir göstəricidir. O, qeyd edir ki, Bakı "Qəhrəman şəhər" statusu daşımağa layiqdir və sözün həqiqi mənasında Bakı sakinləri də daxil olmaqla bütövlükdə Azərbaycan xalqı İkinci Dünya Müharibəsində misilsiz xidmət göstərib: "Bakıya "Əmək Şücaəti Şəhəri" adı yox, "Qəhrəman şəhər" statusu verilməli idi. Lakin SSRİ rəhbərliyində oturan şovinistlər, Azərbaycanı sevməyən qüvvələr, xüsusən də ermənilər Bakıya "Qəhrəman şəhər" statusunun verilməsinə ciddi əngəllər törətdilər və Bakı bu statusu ala bilmədi. Əlbəttə, şovinistlərin, ermənilərin maneçiliyi nəticəsində o zaman Bakının "Qəhrəman şəhər" statusu ala bilməməsi böyük tarixi ədalətsizlikdir, Bakının qələbənin qazanılmasında oynadığı rolun təhrif edilməsidir. Paytaxtımıza "Əmək Şücaəti Şəhəri" adı verilərsə bu onun əməyini, zəhmətini, Böyük Vətən Müharibəsində qələbənin qazanılmasında oynadığı rolu tam ifadə edə bilməsə də, amma yenə də az da olsa bu onun haqqının qaytarılması olardı. Bakı doğrudan da qəhrəman şəhər idi. İkinci Dünya Müharibəsində Bakı 75 milyon tondan çox neft verib, qırıcı təyyarələrin benzinini də Bakı təmin edib.




**Bizim neft təmiz olduğu üçün Sovet təyyarələrinin 80-90 faizi Bakı benzinilə havaya qalxıb. Digər resurslarla da Bakı müharibədə iştirak edib. Bilirsiz ki, o vaxt Qroznı nefti təhlükə altında idi, ona görə Bakı neftindən istifadə edilirdi. 600 mindən çox insan cəbhəyə gedib, yüzlərlə insan arxa cəbhədə gecə-gündüz çalışıb. Sözümün canı odur ki, həm ön, həm də arxa cəbhədə Azərbaycan əhalisi xidmət edib. "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" şüarı da hamının yadındadır. Hamı Böyük Vətən Müharibəsində qələbənin qazanılmasına çalışırdı. Amma təəssüflər olsun ki, Bakıya "Qəhrəman şəhər" statusu verilmədi".**

V.Abışov həmçinin hesab edir ki, Bakıya verilən status Bakının və bakılıların əməyinə adekvat olmalıdır.

***İradə SARIYEVA***

# Azərbaycandan xarici daşınmaz əmlak bazarına axan böyük pulları necə dayandırmalı...

**Son illərin təhlili göstərir ki, Azərbaycandan ölkə xaricinə daşınmaz əmlak xəttilə bağlı hələ də müəyyən maliyyə axını davam edir. Azərbaycan vətəndaşlarının xaricdə daşınmaz əmlak, xüsusən də mənzil aldığı ölkələr sırasında əsas yer isə yenə Türkiyəyə məxsusdur. Ötən ildə Azərbaycan vətəndaşları Türkiyədə 1191 mənzil satın alıb.**



2018-ci ildə isə azərbaycanlılar Türkiyədə 1250 mənzil satın alıb. Məlumat üçün bildirək ki, son 5 il ərzində, yəni 2015-19-cu illər ərzində Azərbaycan vətəndaşları Türkiyədə 4 808 mənzil satın alıb. Məşhur "Euronews" portalı bu fonda xatırladır ki, xarici ölkə vətəndaşlarının Türkiyədə satın aldığı mənzil sayı son 2 ildə 105% artıb. 2017-ci ildə əcnəbilər ümumilikdə 22.234 ev aldığı halda, 2019-cu ildə bu rəqəm 45.483-ə yüksəlib:"Son 2 ildəki bu artımın Türkiyədə mənzil alan əcnəbilərə vətəndaşlıq yolunun asanlaşdırılmasından dərhal sonra baş verməsi diqqət çəkib. 12 yanvar 2017-ci ildə qəbul edilən qanunla 1 milyon ABŞ dolları dəyərində ev alanlar onlara 3 il sahiblik edərsə, Türkiyə vətəndaşlığı ala bilir. 18 sentyabr 2018-ci ildə qanuna edilən dəyişikliklə bu məbləğ 250 min dollara qədər azaldılıb. Türkiyə Statistika Təşkilatının (TÜİK) məlumatları 2013-ci ildən bu yana əcnəbilərin hər il satın aldığı mənzil miqdarını göstərir. Vətəndaşlıq alma yolu asanlaşdıqda, 2017-2019-cu illər arasında 100 faizdən çox artım olub. 2013-2019-cu illəri əhatə edən 7 ildə əcnəbilər ümumən 179 min 539 ev alıblar. 2015-2019 illəri əhatə edən 5 illik müddətdə Türkiyədə ən çox mənzil satın alan əcnəbilər İraq vətəndaşları olub. İraqın ardınca Səudiyyə Ərəbistanı vətəndaşları ikinci sırada gəlirlər. Üçüncü sırada olan İran vətəndaşları 11 min 275 ev alıblar. Bu ölkələri Rusiya izləyir: 9 min 781 (6,6 faiz), daha sonra Küveyt 9 min 697 (6,5 faiz), Əfqanıstan 7 min 214 (4.8 faiz), Almaniya 5 min 944 (4 faiz), Böyük Britaniya 5 min 265 (3,5 faiz), Azərbaycan 4 min 808 (3,2 faiz) və İordaniya 4 min 29 (2.7 faiz). Xaricilərin şəhər seçimlərini nəzərə alaraq, İstanbul və Antalyanın ümumi payı 56 faizi ötüb. Bursa, Yalova, Ankara, Trabzon, Sakarya, Muğla və Mersin İstanbul və Antaliyanı təqib edir".

Qeyd edilənlərdən aydın görünür ki, Türkiyədə ən çox mənzil alanlar sırasında soydaşlarımız da var. Hazırda azərbaycanlılar Türkiyədə, daha çox isə İstanbulda daşınmaz əmlak almağa maraq göstərir. Soydaşlarımızı Türkiyədə daşınmaz əmlak alışına sövq edən əsas səbəblərin biri isə kommersiya maraqlarıdır. Çünki Türkiyədə əmlakın icarəyə verilməsi gəlirli biznes sayılır. Eləcə də Türkiyənin daşınmaz əmlak bazarında, digər ölkələrin daşınmaz əmlak bazarından fərqli olaraq, məhdudiyyətlər azdır. Ona görə də tək Azərbaycandan deyil, digər ölkələrdən də Türkiyəyə pul axır. Bunun digər səbəbi isə Türkiyədə işləyən həmvətənlərimizin kirayədə qalmamaq üçün ev almasıdır. Bundan başqa, yuxarıda qeyd olunduğu kimi, Türkiyənin turizm ölkəsi olması ilə əlaqədar iş adamları evləri kommersiya məqsədilə alıb kirayə verir. İtaliya, Fransa, İspaniya kimi ölkələrlə müqayisədə burada icarə biznesinin gəlirlilik səviyyəsinin daha yüksək olduğu bildirilir. Ekspertlərin fikrincə, ölkə vətəndaşlarının qonşu Türkiyəyə daşınmaz əmlak üçün üz tutmasının əsas səbəblərindən biri onun daha yaxın olması və bu ölkədə, Azərbaycan da daxil olmaqla, bir neçə dövlətə qarşı qoyulmuş qadağanın aradan qaldırılmasıdır.

Həmçinin, Avropadakı real vəziyyət burada bir sıra ölkələrdə daşınmaz əmlakın dəyərdən düşməsinə səbəb olduğundan, burada da ev alan soydaşlrımızın sayında artım müşahidə olunur. Məlumatlara görə, azərbaycanlılar əsasən Yunanıstan, İspaniya kimi ölkələrdə mənzil almağa çalışır. İndi İspaniya banklarında kredit rəsmiləşdirmək hər hansı xarici vətəndaş üçün asan prosesdir. Maraqlı faktlardan biri də Almaniyada mənzillərin qiymətidir. Bütün birləşmiş Avropa iqtisadiyyatını öz dəmir çiyinləri üzərində saxlayan bu ölkədə daşınmaz əmlak ucuzdur. Onu da bildirək ki, yerli əhalidən fərqli olaraq, xarici vətəndaşlar Azərbaycanda daşınmaz əmlaka elə də böyük pul yatırmır. Səbəblərdən biri bahalıqdır. Bundan başqa, Azərbaycan qanunvericiliyində əcnəbilərin ölkədə mənzil almasına dair heç bir problem yaranmasa da, torpaq alışına məhdudiyyət var. Amma indiki vəziyyətdə Azərbaycanın turizm potensialının geniş olması da əcnəbiləri infrastruktur layihələrinə sərmayə qoymağa sövq edə bilər. Çünki xarici vətəndaşlar turizm obyektlərini almaqda maraqlıdır və bu hal özünü getdikcə daha qabarıq formada büruzə verir.

***Tahir TAĞIYEV***

# Banklar real sektora kredit tranşlarını könüllü açana oxşamır...

**Prezident İlham Əliyevin yanında keçirilən 2019-cu ilin yekunlarına dair müşavirədə Mərkəzi Bankın sədri Elman Rüstəmov bildirib ki, ölkədə ümumi pul siyasətinin 2018-ci ilin əvvəlindən başlanan yumşaldılması, yəni uçot dərəcəsinin tədricən endirilməsi keçən il ərzində də davam etdirilib.**




## Fikrət Yusifov: "Banklar bir-birilə əlbir olub bazarda öz istəklərini həyata keçirirlər"

Ümumən 8 dəfə bu məsələyə baxılıb və 7 dəfə faiz dərəcələri aşağı salınıb. Hazırda sözügedən göstərici 7,5 faizdir.

Əvvəl faiz dərəcələri bundan 2 dəfə yüksək idi. Bütün bunlar ümumi faizlərə də təsir göstərərək, son iki il ərzində xüsusən biznes kreditləri üzrə dərəcələri də 5 faiz (16 faizdən 11-ə) endirib. Bununla belə, E. Rüstəmov onu da bildirib ki, kredit faizlərinin səviyyəsi onları hələ qane etmir və o üzdən, bu istiqamətdə işlər davam etdiriləcək.

Bütün bunlara baxmayaraq, banklar real sektorun kreditləşməsində, bu sahəyə kredit tranşının ayrılmasında maraqlı deyillər. Onu da qeyd edək ki, Prezident İlham Əliyev bir neçə dəfə bu məsələyə xüsusi toxunub. Keçirilən məlum müşavirədə də dövlət başçısı demişdi ki, bank sektoru iqtisadiyyatın artımına, real sektorun inkişafına kömək göstərmir və son illər yenə istehlak kreditlərinin həcmi artır. Prezident onu da qeyd edib ki, banklara 2 milyard manat resurs verilsə də, yenə kreditləşmədə istehlak krediti üstünlük təşkil edir: "Bu da çox təhlükəli tendensiya ola bilər. Ona görə biz elə etməliyik ki, bank sektoru daha çox real sektoru dəstəkləsin. Ona görə biznes kreditlərinin verilməsində baxın, hansı mexanizm olmalıdır ki, banklar da bunda maraqlı olsunlar".

Görünən odur ki, uçot dərəcəsi 15 faizdən 7,5 faizə, yəni 2 dəfə aşağı salındığı halda, biznes kreditləri üzrə faiz dərəcələri cəmi 5 faiz enib. Belə görünür ki, bütün çağırışlara, bir sıra tədbirlərə baxmayaraq, banklar hələ də real sektorun kreditləşməsində maraqlı deyillər.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən iqtisad elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, kommersiya bankları hər vəchlə real sektora kredit verməkdən yayınırlar: "Baxmayaraq ki, Mərkəzi Bank davamlı şəkildə uçot dərəcəsini aşağı salır, amma bu, praktiki olaraq, öz təsirini göstərmir. Bu o deməkdir ki, kredit resurslarının həm faiz dərəcəsi aşağı düşməlidir, həm də banklar real sektora vəsait ayırmaqda maraqlı olmalıdırlar. Ancaq bunların heç biri baş vermir. Banklar bir-birilə əlbir olub bazarda öz istəklərini həyata keçirirlər. Real sektora, ümumiyyətlə, kredit ayırmaqda maraqlı görünmürlər. Hansı ki, sözügedən sektora vəsaitin ayrılması çox önəmlidir. Ona görə də Mərkəzi Bank bankların bu özbaşınalığına bir əncam çəkməlidir. Yeni proseslərin bu cür davam etməsi heç cür mümkün deyil. MB uçot dərəcəsini bir neçə dəfə aşağı salır, banklar isə real sektora vəsait ayırmır. Əslində, bankın normal fəaliyyəti layihələri maliyyələşdirməklə müşayiət olunmalıdır. Çünki bütün dünyanın bank sektorunun iş prinsipi var. O da ondan ibarətdir ki, banklar istehlak kreditləri ilə yanaşı, biznes kreditləri də verirlər. Lakin Azərbaycanda banklar ancaq istehlak kreditlərinə önəm verirlər. Bu isə anormal bir yanaşmadır. Dünyanın aparıcı bankları məhz real sektora kredit ayırırlar. Müxtəlif layihələri uzun müddət kreditləşdirirlər. Verilən kreditlər hesabına zavodlar, müəssisələr və digər obyektlər qurulur. Zamanla bunun səmərəsini də görürlər. Ancaq təəssüflər olsun ki, Azərbaycanda kommersiya bankları bunu etmək istəmirlər".

*"Mərkəzi Bank bankların bu özbaşınalığına bir əncam çəkməlidir"*

***Vidadi ORDAHALLI***

Azərbaycan aşıq ədəbiyyatında, xüsusən də dastan yaradıcılığında özünəməxsus yer tutan "Aşıq Qərib" dastanı əsrlərdir aşıqların repertuarında ölməz məhəbbət dastanı olaraq öz varlığını qoruyur. Dünya türkoloqları, şərqşünasları, ozan-aşıq sənətini araşdıran bütün alimlər "Aşıq Qərib"in oğuz-türk mənşəli bir epos olduğunu qeyd edirlər.

# Ermənilər məşhur Aşıq Qəribi də Sarkis adlanan "qondarma müqəddəslə" bağladılar




***Elxan Məmmədli:** ”...Sarkis obrazının bu dastanla heç bir əlaqəsi yoxdur”*

***İlhamə Qəsəbova:** ”Butalanmış qəhrəmanlara dara düşərkən kömək edən qüvvələr - Xızır, Həzrət Cəbrayıl, Qırxlar və başqaları islam düşüncəsi ilə bağlı fövqəlbəşər qüvvələrdir, ”müqəddəs Sarkis” yox”*

Nəinki Qafqazda, hətta bütün Türk dünyasında, eləcə də Rusiyada, İranda populyar olan "Aşıq Qərib" dastanına qarşı ermənilər uzun illərdir iddialıdırlar. Dastanın "erməniləşdirilməsi" istiqamətində müxtəlif səviyyələrdə işlər görən ermənilər bu dastanı "erməni məhəbbət dastanı" kimi qələmə vermək üçün bütün saxtakarlıqlara əl atırlar. Məsələ burasındadır ki, "Aşıq Qərib"in ermənilərlə yaxından-uzaqdan heç bir əlaqəsi yoxdur. Amma ermənilər "Aşıq Qərib"i tam olaraq "erməniləşdirmək" iddiası ilə tamamilə yeni bir üsul seçiblər. İndi də "Aşıq Qərib" dastanına "müqəddəs Sarkis"i peyvənd etməklə məşğul olan ermənilər yazırlar ki, Aşıq Qəribə "müqəddəs Sarkis" buta verib və ağ libasda, ağ at belində Aşıq Qəribin qarşısında peyda olaraq onu 40 günlük yoldan bir neçə saata Tiflisə çatdırıb. Guya ki, "müqəddəs Sarkis"in həm də aşiqləri öz məşuquna qovuşdurmaq "gücü" olub. Hər yerə yamaq etməkdən yorulmayıb, indi də onu Aşıq Qəribin "xilaskarı" kimi qələmə verməkdən çəkinmirlər. Əlbəttə, bu, quru iddiadan başqa bir şey deyil. Bundan bəhs edən məqalədə bildirilir ki, Aşıq Qərib qürbətdə var-dövlət qazandıqdan sonra Tiflisə gəlmək istəyir, o, yolda bir sıra çətinliklələ rastlaşır, guya ki, "müqəddəs Sarkis" ağ libas geyib ağ at belində Aşıq Qəribin duasını eşidib, onun köməyinə gəlir, onu Şahsənəmə çatdırır (?). Şübhəsiz, bu, erməni uydurmasıdır.

Azərbaycan Milli Elmlər Akademiyasının Folklorşünaslıq İnstitutunun şöbə müdiri, məşhur aşıqşünas-alim, filologiya elmləri doktoru Elxan Məmmədli bizimlə söhbətində bildirdi ki, ümumiyyətlə, "müqəddəs Sarkis"in özü ermənilər tərəfindən uydurulan saxta bir personajdır.

"Aşıq Qərib" dastanına qarşı ermənilərin uzun illərdir iddia irəli sürdüklərini qeyd edən E.Məmmədlinin sözlərinə görə, hətta gürcülər də bu dastanı mənimsəmək istəyirlər: "Aşıq Qərib bir türk oğludur. O əslən Cənubi Azərbaycandandır və ağası Şahsənəmi ona buta verib, o öz butasına qovuşmaq üçün Tiflis şəhərinə gəlir. Bundan sonra dastandakı hadisələr cərəyan edir. "Müqəddəs Sarkis"in obrazının bu dastanda peyda olmasının özü gülüncdür. Ümumiyyətlə, buta vermək anlayışı türk-oğuz dastanlarına xas göstəricidir. Buta anlayışının bizim dastanlarla ciddi əlaqəsi var. "Aşıq Qərib" dastanının ermənilərə heç bir aidiyyəti yoxdur. Aşıq Qəribə Şahsənəmi Xızır Peyğəmbər buta verib. Aşıq Qəribi Hələbdən Tiflisə olan 40 günlük yoldan bir göz qırpımında Tiflisə gətirən ağ libaslı, ağ atlı ilahi müqəddəs "müqəddəs Sarkis" yox, aşiqləri məşuquna qovuşduran, onların bütün sınaqlardan üzüağ çıxmasına kömək edən Xızır Peyğəmbərdir. Aşıq Qəribi Şahsənəmə onları bir-birinə buta verən Xızır Peyğəmbər qovuşdurub, Sarkis obrazının bu dastanla heç bir əlaqəsi yoxdur. Onun adı dastanlardan müxtəlif variantlarda keçir. Bəzən onu Xızır, bəzən Qırxlar piri adlandırırıq. Hətta Həzrət Əlinin də aşiqlərə buta verdiyi haqqında dastanlarımızda işarələr var. Ermənilər torpaqlarımızı mənimsədilər, indi də dastanlarımızı mənimsəmək istəyirlər, bunun qarşısı alınmalıdır".

AMEA-nın Folklor İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, aşıqşünas İlhamə Qəsəbova da hesab edir ki, "Aşıq Qərib" dastanını ermənilər 100 ildən çoxdur mənimsəmək istəyirlər. Buna səbəb dastanın bütün Qafqazda, o cümlədən də digər yerlərdə populyar olmasıdır.

"İndiyə qədər bir sıra dastanlarımıza, nağıl və əfsanələrimizə qarşı kifayət qədər erməni təxribatı mövcud olub, bu gün bu proses ermənilər tərəfindən davam etdirilir. Ermənilərin "Aşıq Qərib" dastanına iddia etmələri yeni məsələ deyil. Hələ bir neçə il əvvəl ermənilərin "Aşıq Qərib" dastanı üzərində "işləməsi" haqqında məlumatlar almışdıq. Onlar Qafqazda məşhur olan və bütün aşıqların söyləmiş olduqları "Aşıq Qərib" dastanında obrazların erməni adları ilə əvəzlənməsini həyata keçiriblər. Eyni zamanda da dastanı kifayət qədər təhrifə uğradıblar. Ermənilərin bunu etməkdə məqsədləri "Aşıq Qərib" dastanını, eyni zamanda da dastanın süjeti və onun nəğmə mətnləri əsasında çəkdikləri eyniadlı filmi UNESCO-nun qorunan Qeyri-maddi mədəni irs siyahısına daxil etməkdir. Hətta bununla bağlı təqdimat da hazırlamışdılar. Heç bir mütəxəssisə gizlin deyil ki, "Aşıq Qərib" Azərbaycan xalqının böyük məhəbbət dastanıdır. Ermənilərin "Aşıq Qərib" dastanını saxtalaşdırma yolu ilə "erməniləşdirmək" cəhdləri tarixi həqiqətlərin təhrif edilməsidir. Bu möhtəşəm dastanı saxtalaşdırmaq yolu ilə onu dünya xalqlarına erməni mədəni dəyəri kimi təqdim etmək onların ən böyük arzusu olsa da, bu, UNESCO-nun nizamnamə tələblərinə ziddir. Xalqımızın çoxəsrlik aşıq yaradıcılığında neçə yüz ildən bəri özünə şərəfli yer tutan, dastançı aşıqların repertuarından düşməyən, ustad sənətkarlar tərəfindən zaman-zaman yeni-yeni variantlarda çalınıb-çağrılan böyük məhəbbət dastanlarından biri də "Aşıq Qərib"dir. Türk xalqlarının məhəbbət dastanları silsiləsində "Aşıq Qərib"in xüsusi yeri var. Elm aləminə dastanın iki - Azərbaycan-Anadolu və Türküstan versiyaları məlumdur. Birinci versiya Azərbaycan və Anadoluda (Türkiyə) yaranıb yayılan otuz variantı əhatə edərək Azərbaycan variantı ətrafında versiyalaşır. Türküstan versiyası isə türkmən variantı əsasında yaranaraq yeddi variantı əhatə edir. "Aşıq Qərib"in aşıq repertuarında dinlənilməsi barədə məlumat XIX əsrin 20-ci illərinə təsadüf edir. Mənbələrdə verilən bilgilərə görə, dastan ilk dəfə 1813-cü ildə Aşıq Nüsrəddin adlı peşəkar bir sənətkar tərəfindən Gülüstan kəndində rus və İran diplomatları tərəfindən Azərbaycanın iki yerə parçalanması barədə tarixi faciəvi sazişin imzalanması şərəfinə təşkil edilmiş ziyafət məclisində "Qəriblə Şahsənəmin hekayəti" adı ilə söylənib. Bu variantın rus və Azərbaycan mətbuatında nəşri barədə əldə məlumat yoxdur. Ancaq Çar Rusiyası tərəfindən sazişin imzalanma mərasimində iştirak edən hərbi müşavir A.Lazeryev 1825-ci ildə nəşr edilən məşhur rus ədəbi məcmuələrinin birində yazırdı: "Gülüstanda imzalanmış sazişə həsr olunan, İran diplomatları tərəfindən təşkil edilmiş məclisdə Nüsrəddin adlı bir dağlı sənətkarın öz balalaykasında (sazında - İ.Q.) çalıb-çağırdığı "Qəriblə Şahsənəmin hekayəti" adlı bir rəvayət bütün məclisdəkiləri heyran etdi. Ürəyimdən belə bir istək keçdi ki, kaş çarizmin Qafqaza islaha göndərdiyi rus yaradıcılarından biri imperiyanı sarsıtmağa çağıran ideyalardan əl çəkib, belə təsirli rəvayətləri qələmə alıb bizlərin ruhunu oxşayaydı".

Bu rəvayət barədə A.Lazeryevin təfərrüatlı məlumatın həmin dövrlərdə Qafqazda sürgün həyatı yaşayan rus şairi M.Y.Lermontova da məlum olması və onun həmin məlumatın izi ilə "Aşıq Qərib"i söyləyən aşıqlardan birinə rast olub hekayəti dinləməsi və bu süjet əsasında özünün eyni adlı məşhur poemasını yazma ehtimalı bizcə, həqiqətə daha yaxın görünür. Bunu təsdiqləməyə əsas verən başqa bir fakt isə poema ilə aşıq söyləmələri arasındakı süjet yaxınlığı, mövzu və məzmun oxşarlığıdır. Süjetin sonrakı illərdə başqa bir variantı isə yenə Azərbaycan aşıqlarından M.Mahmudbəyov tərəfindən yazıya alınaraq, 1882-ci ildə SMOMPK - "Qafqaz əraziləri və xalqlarının təsviri üçün materiallar toplusu"nda nəşr edilib. Bundan sonra isə 1916-cı ildən başlayaraq "Orucov qardaşları" mətbəəsi tərəfindən litoqrafiya üsulu ilə dastan Azərbaycan və türk dillərində bir neçə dəfə nəşr edilərək yayılıb. Həmin nəşrlər içərisində öz məzmun dolğunluğu və sənətkarlıq baxımından kamilliyi ilə seçilən Gəncə variantı Azərbaycan və Anadoluda geniş

şöhrət tapıb. Təsadüfi deyil ki, həmin variant əsasında Anadolu aşıqları onun Anadolu variantını formalaşdırmışlar. 1930-cu illərdən başlayaraq Azərbaycanda dastanın müxtəlif aşıqlardan yazıya alınmış daha bir neçə variantı Ə.Tahirov, Ə.Axundov və başqaları tərəfindən çap edilərək araşdırmalara cəlb olunub.

Süjetin Türküstan versiyası nisbətən sonralar Azərbaycan aşıqlarının repertuarından süzülüb gələn məzmun çevrəsində formalaşıb. Bu versiyada məlum süjet əsasən qorunub saxlanıb, türkmən xalqının milli həyat, məişət, adət-ənənə detalları ilə yanaşı, türkmən toponimləri və şəxs adları ilə zənginləşdirilib, peşəkar ifaçıların sənətkarlıq üslubları ilə cilalanıb".

İ.Qəsəbova hesab edir ki, hazırda dastanın Azərbaycanda 10, Anadoluda 7, türkmənlərdə 5 variantı qeydə alınıb.

Alim qeyd etdi ki, görkəmli türk folklorşünası professor Fikrət Türkmən isə dastan süjetinin coğrafiyasını Şərq və Qərb kontekstində götürərək, onun bütün məlum variantlarını təhlilə cəlb edərək, süjetin yarandığı bütün qaynaqları, nağıl variantı mətnlərini, eləcə də Misir, Azərbaycan və Türkiyədən kənarda yaranan və yayılan variantlarını maraqlı müqayisələrə cəlb edərək süjetin genezisini Azərbaycan həyatı ilə bağlayır, hətta Misirdə nəşr edilmiş "Aşıq Qərib"in Azərbaycan mənşəliyi mülahizələrini irəli sürür, tədqiqatında dəfələrlə onun erməni, yaxud hansısa başqa bir xristian xalqının folklor yaradıcılığında mövcud olmadığını xüsusi vurğulayır. Professor Fikrət Türkmən hekayətdəki "Nişanlının öz toyuna gəlib çıxması"nın türk eposundakı Bamsı Beyrəklə süjetdən deyil, daha mühüm bir qaynaqdan süzülüb gəldiyinə işarə vurur. Təbii ki, bu qaynaq türk xalqları üçün ənənəvi süjet cəbbəxanasını formalaşdıran tarixi gen qaynağıdır ki, o, qardaş xalqların folklor yaradıcılığında silsilə oxşarlıqların ana qaynağı kimi hələ yeni-yeni tədqiqat obyektinə çevrilməkdədir. İ.Qəsəbova qeyd etdi ki, "Aşıq Qərib" milli dastan yaradıcılığının ən erkən süjetlərini əhatə etdiyi kimi, xalqımızın erkən orta əsr məişət həyatını və yaşam tərzini, adət-ənənələrini, sosial durumunu, cəmiyyətdaxili iddiyyətlərini geniş şəkildə özündə ehtiva edən qeyri-maddi mədəni dəyərlərimizin böyük şifahi abidəsidir. "Ermənilərin "Aşıq Qərib" dastanına "müqəddəs Sarkis"in obrazını daxil etməsi böyük tarixi saxtakarlıqdır. Buta vermək, eləcə də ilahi müqəddəslərin aşiq-məşuqların köməkçisinə, yardımçısına çevrilməsi ənənəsi islam görüşləri ilə bağlı olub. Aşiq və məşuqun yuxuda bir-birinə buta verməsi, belə demək olarsa, bir-birinin qismətinə yazılması bir-birindən xəbərsiz olaraq ilahi varlıq tərəfindən bəxş edilən nikah aktı, ilahi vergisi ilə bağlıdır. Bu akt bütün variantlarda və məzmunda, müxtəlif zaman və məkan daxilində mütləq və pozulmazdır. Azərbaycan dastan yaradıcılığının bu tipli bütün süjetlərində aşiq və məşuqlar bir çox çətinliklə üzləşsələr də, ya fiziki, ya da mənəvi cəhətdən bir-birinə qovuşma hökmü altındadır. Bu, xalqımızın heç bir yaxın və uzaq qonşusuna ötürmədiyi dastan yaradıcılığı metodu və ənənəsidir.

Digər tərəfdən, bu tipli süjetlərdə butalanmış qəhrəmanlara dara düşərkən kömək edən qüvvələr - Xızır, Həzrət Cəbrayıl, Qırxlar və başqaları islam düşüncəsi ilə bağlı fövqəlbəşər qüvvələrdir, "müqəddəs Sarkis" yox, onlar ancaq müsəlmanlığa məxsusdur, onları sehirli dərvişlər və mifoloji ünsürlərlə eyniləşdirmək, təbii ki, olmaz. Çünki bütün bunların dastanın özünəməxsus sabit modelinin ümumi süjet xətti ilə möhkəm vəhdəti mövcuddur. Onları saxtalaşdırıb dəyişdirəndə, özününküləşdirəndə anlaşılmazlıqlar, təhriflər meydana çıxır ki, onlar da yol verilmiş saxtakarlıqların bütün görünən bucaqlarını əks etdirir. Yeni mərhələdə "Aşıq Qərib"i saxtalaşdıran erməni ssenarist və rejissorları, o cümlədən də Paracanov təəssüf ki, özlərinə məxsus tarixi saxtakarlıq ənənələrindən uzaqlaşmayıb, onları daha da dərinləşdiriblər. Təqdim edilən üzdəniraq süjetin mətni ilə "Aşıq Qərib"in mükəmməl dastan mətninin müqayisəsi təşriflər və saxtakarlıqlar silsiləsini aydın əks etdirir".

Alim qeyd etdi ki, "Aşıq Qərib" dastanında əhvalat sadə bir süjet üzərində qurulub və bu süjet də dastandan xəbəri olan hər kəsə məlumdur.

***İradə SARIYEVA***

# Qaz sayğaclarının oğurlanması ilə xüsusi məşğul olanlar var - məlumatı "Azəriqaz" rəsmisi də təsdiqləyir

## *Ceyhun Səfərov: "Sayğac oğruları arasında "Azəriqaz"ın sabiq əməkdaşları da ola bilər"*

**Bakıda və bölgələrdə sayğac oğrularının olduğu və naməlum şəxslər tərəfindən vətəndaşların mənzillərinə oğurluq sayğaclar quraşdırıldığı haqda cəmiyyətdə söz-söhbətlər dolaşırdı. Bəziləri bunu şayiə saysa da, son dövrlər bu səpkidə baş verən bir neçə hadisə baş verənlərin həqiqət olduğunu təsdiqləyir.**

Belə ki, bəzi vətəndaşların mənzillərinə quraşdırılan sayğaclar oğurluq olub və həmin sayğaclar "Azəriqaz"a aidiyyəti olmayan şəxslər tərəfindən quraşdırılıb. Qeyd edək ki, bu tip hadisələr daha çox şəhər mərkəzindən uzaq kənd və qəsəbələrdə baş verdiyi üçün, elə də diqqəti cəlb etmir.

Bakıda oğurluq qaz sayğacları quraşdırılması faktını təsdiqləyən "Azəriqaz" vətəndaşlara rəsmi xəbərdarlıq edir ki, bu halla rastlaşan abonentlər bununla bağlı adıçəkilən quruma müraciət etsinlər.

"Azəriqaz" İstehsalat Birliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin yaydığı məlumatda qeyd olunur ki, bəzi işbazlar smart tipli sayğacları oğurlayıb, əhalinin az yaşadığı ərazilərdə satırlar: "Bir müddət əvvəl İB-nin Bakı Regional Qazın Satışı Departamentinin əməkdaşları tərəfindən NZS qəsəbəsində smart tipli qaz sayğaclarının olmaması aşkarlandı. Araşdırma aparıldı və məlum oldu ki, o sayğaclar orada hansısa işbazlar tərəfindən quraşdırılıb.

Onlar başqa ərazidən sayğacları oğurlayıb, burada quraşdırıblar. İşbazlar sayğaclara müdaxilə edib, insanlar qazdan istifadə ediblər. Hər ay gəlib, vətəndaşdan razılaşdığı məbləği alıblar. İnsanları hər dəfə bir bəhanə ilə aldadıblar ki, yaxın vaxtda kartınızı verəcəyik. Nəticədə vətəndaşa kart verilməyib.

Çünki hər bir sayğaca görə abonentə bir kart kodlaşdırılır. Belə hal aşkarlanandan sonra əraziyə müdaxilə etdik. Araşdırma aparılarkən müəyyən faktlar üzə çıxdı. Sayğacın hər birinin mərkəzi bazada öz kodu, nömrəsi var. Bu sayğacların bir qismi vaxtilə ayrı-ayrı ünvanlardan oğurlanan smart tipli qaz sayğacıdır. Onları aldatmağa çalışan işbazlar olarsa, o zaman hüquq-mühafizə orqanlarına məlumat versinlər. Bu yaxınlarda bu tip qaz sayğacı oğruları cinayət məsuliyyətinə cəlb edildilər. Qaz sayğacını oğurlayan Suraxanı və Nəsimi rayon sakinləri üç il müddətinə azadlıqdan məhrum olundular.

Bu insanlar 2018-2019-cu illərdə üç qəsəbədə - Qala, Şüvəlan,Türkanda yerləşən evlərdən 93 qaz sayğacı oğurlayıblar. Hesab edirik ki, belə halların ifşa olunması bu işlə məşğul olanların fikrində dönüş yaradacaq".

Maraqlıdır, bir abonentin adına qeydiyyatda olan, nömrəsi olan bir qaz sayğacının başqa bir vətəndaşa aid ünvanda yerləşdirilməsi necə baş verə bilir? Vətəndaşların sayğacını oğurlayanlar kimlərdir? Qaz sayğacına aid smart kart olmadan sayğaca qazı necə yükləmək olar?

Suallarımıza cavab tapmaq məqsədilə "Azəriqaz" İstehsalat Birliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Ceyhun Səfərovla əlaqə saxladıq. O, "Bakı-Xəbər"ə bildirdi ki, son iki ildə baş verən qaz sayğacı oğurluğu faktları artıq "Azəriqaz"ı bu istiqamətdə tədbir görməyə vadar edib: "Məsələ burasındadır ki, sayğac oğrusu olan işbazlar həmin sayğacı başqa abonentin mənzilində qoyarkən həmin sayğaca qaz gəlməsi üçün hansısa bir yolla müdaxilə edə bilirlər. Onlar kimlərdirsə bu sayğaclara müdaxilə etməyi bacarırlar. İşbazlar sayğaca müdaxilə edərək müvəqqəti olaraq onun kartsız istifadəsini təmin edirlər. Qaz gəlmədikdə isə vətəndaş onlardan bir neçə dəfə kart tələb edir, alınmadıqda burada hər hansı bir müəmmalı məsələ olduğunu anlayır və "Azəriqaz"ın 104 xidmətinə müraciət edir. Bu müraciətlərin əsasında hadisədən xəbərimiz olur. Gedib ünvana baxırıq ki, sayğac başqasına aiddir və onu oğurlayaraq quraşdırıblar, nəticədə də vətəndaş aldadılıb".

Dövlət büdcəsinə və vətəndaşlara maddi zərər vuran sayğac oğrularının, işbazların əməlləri ilə bağlı "Azəriqaz"ın hər hansı bir tədbir görəcəyinə gəlincə, C.Səfərov qeyd etdi ki, qurum artıq bununla bağlı materialları toplayır: "Biz hazırda sayğac oğurluğu ilə bağlı materialları toplayırıq və həmin materialları hüquq-mühafizə orqanlarına təqdim edəcəyik.

**Çünki bizim özümüzün birbaşa inzibati tədbir görmək, cərimə tətbiq etmək səlahiyyətimiz yoxdur, biz ancaq məhkəmə qarşısında itirilmiş qazın bərpası üçün iddia qaldıra bilirik. İlk dəfədir ki, belə hal olub və biz artıq bu məsələni qabardırıq. Son iki ildə baş verən faktları bir yerə toplayırıq və mətbuata da açıqlamalar veririk. Keçən ilin sonunda sayğac oğurluğuna görə iki nəfər həbs edilib. Sayğac oğurluğuna görə həbs edilən 2 nəfər iki il müddətində 93 sayğac oğurlamışdı. Sayğac oğurluğuna görə şübhələndiyimiz şəxslər də var. Ehtimal edirik ki, sayğac oğruları arasında "Azəriqaz"ın sabiq əməkdaşları da ola bilər. Bizim bununla bağlı ehtimallarımız var və bütün faktları hüquq-mühafizə orqanlarına təqdim edəcəyik".**

*Günel CƏLİLOVA*




*"...həmin sayğaca qaz gəlməsi üçün hansısa bir yolla müdaxilə edə bilirlər"*

# Bakıda kirayə üsulu ilə satılacaq mənzillərin qiyməti narazılıq doğurmağa başlayıb

**Artıq bir neçə gündür böyük əksəriyyəti gənc ailələr olmaqla bir çoxunun səbrsizliklə gözlədiyi kirayə evlərlə bağlı qaranlıq qalan bəzi suallara aydınlıq gətirilib. Yanvarın 22-dən etibarən bu mənzillərin satışa çıxarılacağı açıqlandı, lakin qiymətlərlə bağlı əsas gözləntilər özünü doğrultmadı.**

***Ramil Osmanlı:*** *"Müxtəlif ərazilərdə yerləşən mənzillərin hamısının kvadratmetrinin qiymətinin eyni olması absurddur"*

***Natiq Cəfərli:*** *"Kirayə evlər layihəsi ilə mənzil sahibi olmaq istəyənlər yetərincədir, lakin bu gözləntilər özünü doğrultmadı"*



Məlumat üçün bildirək ki, Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu kirayə evlərin siyahısını açıqlayıb. Fondun yaydığı məlumatda qeyd olunur ki, bu mənzillərin 208-i Bakı şəhərinin Nizami rayonu M.Abbasov küçəsində ("Neftçilər" və "Qara Qarayev" metrostansiyaları ətrafında), 40-ı Bakı şəhəri Xətai rayonu, Gəncə prospektində, 58-i Abşeron rayonu, Xırdalan şəhəri 21-ci məhəllədə, 25-i isə Sumqayıt şəhəri Sülh küçəsində yerləşir.

Onu da qeyd edək ki, kirayə mənzillərin qiyməti də açıqlanıb. Maraqlı məqam ondan ibarətdir ki, Bakının müxtəlif ərazilərində, Xırdalan və Sumqayıt şəhərində də qiymət eynidir. Məlumat üçün bildirək ki, kirayə evlər layihəsi üçün satışa çıxarılan mənzillərin bir kvadratmetrinin qiyməti 1 850 manat ətrafında dəyişir. Yəni Xətai rayonunun Gəncə prospektində sahəsi 96.7 kvadratmetr olan mənzilin satış qiyməti 178.1 min manatdır. Bu isə o deməkdir ki, mənzilin bir kvadratmetrinin qiyməti 1 841 manata başa gələcək. Belə mənzili 25 illik, yəni 300 aylıq müqavilə ilə kirayə götürmək üçün aylıq ödəniş haqqı 594 manat, ilkin ödəniş isə 7 122 manat təşkil edəcək.

Ərazidən asılı olmayaraq, kirayə mənzillərin satış qiymətinin məbləği əhali arasında narazılıq yaradıb.

Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı bildirdi ki, Fond qiymətləndirici təşkilatlardan mənzillərin dəyəri ilə bağlı rəqəmlər alıb: "Həmin rəqəmlər ümumiləşdirilərək qiymətlər açıqlanacaq. Kirayə mənzillər Fondun istiqrazları hesabına alınacaq. Fond illik üç faiz dərəcəsini də qiymətlərə daxil edib. Kirayə mənzillərin kvadratmetrinin hər yerdə eyni məbləğdə olması ilə bağlı yayılan məlumatlar sual doğurur. Hər yerdə qiymətlər, məsələn, mənzilin kvadratmetri 1800 manat ola bilməz. Ona görə ki, burada müxtəlif ərazilərdə yerləşən mənzillərdən söhbət gedir. Müxtəlif ərazilərdə yerləşən mənzillərin hamısının kvadratmetrinin qiymətinin eyni olması absurddur. Bilirəm ki, Fondda daşınmaz əmlakla bağlı kifayət qədər peşəkar şəxs var. Ola bilər ki, bəzi ərazilərdə mənzil baha olsun, bu da normaldır".

İqtisadçı-ekspert Natiq Cəfərli bildirdi ki, kirayə evlərlə bağlı bu layihəyə tələbat yüksək olsa da, təklif, yəni mənzillərin sayının az olması heç də müsbət olmayan bir tendensiyadır: "Kirayə evlər layihəsi ilə mənzil sahibi olmaq istəyənlər yetərincədir. Lakin bu gözləntilər özünü doğrultmadı. Çünki bu layihəni sosial layihə kimi dəyərləndirmək olmaz. Qiymətlərin yüksək olması da mənfi tendensiyalardan biridir".

**Həmsöhbətimiz onu da əlavə etdi ki, şəhərin mərkəzi və nisbətən kənar yerlərdə, məsələn, Xırdalanda mənzillərin qiymətinin eyni olması xoş olmayan bir haldır. Əslində, bu mənzillərin faizsiz olduğu söylənilirdi. Lakin qiymətlərin yüksək olması bu fikirləri də alt-üst edib. Görünən budur ki, standart qiymətlər müəyyənləşdirilsə də, faiz öncədən bu qiymətlərin üzərinə hesablanıb. Sadəcə olaraq faizsiz kirayə evlər deyərək bunu bir söz oyununa çeviriblər.**

***Günel CƏLİLOVA***

# Hökməli kənd sakinlərinin ittihamı - iki il əvvəl işıq xətlərimiz tam yeniləndi, ancaq külək əsən kimi... köhnə hamam...

**Abşeron rayonu Hökməli qəsəbəsi, Bakı-Şamaxı yolu 19-cu km yaşayış massivinin sakinləri elektrik enerjisinin təminatında problem yaşandığını iddia edirlər. Sakinlər bildirirlər ki, iki il öncə avqust ayında elektrik xətləri dəyişdirilərək izolyasiyalı elektrik xətləri ilə əvəz edilib.**

***Tanrıverdi Mustafayev:*** *"Bizim elə xətlərimiz var ki, hasara alıblar, dəyişdirə bilmirik"*



Bununla yanaşı, bütün transformatorlarda yeniləri əvəz olunub. Ancaq buna baxmayaraq, elektrik enerjisinin təminatında hələ də problem yaşanır: "Bu hal daha çox 2018-ci ilin oktyabr ayından etibarən qeydə alınmağa başladı".

Qəsəbə sakinləri şikayətlərində bildirirlər ki, qış aylarında həftə ərzində 3-4 dəfə işıqları sönür. Eyni zamanda, sakinlər onu da deyirlər ki, onlar elektrik enerjisinin mütəmadi olaraq keçməsi ilə bağlı elektron ünvana yazılı şəkildə müraciət etsələr də, şikayətçilərə hər hansı bir cavab verilməyib.

Məsələ ilə bağlı "Azərişıq" ASC ilə əlaqə saxladıq. "Azərişıq" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev bildirdi ki, problemdən xəbərləri var və həlli istiqamətində bütün real işlər həyata keçirilir: "Məlumat üçün bildirim ki, həmin ərazidə bütün işıq xətlərinin altında evlər tikilib, artıq yer yoxdur. Biz dekabr ayının 5-dən məlum ərazidə təmir işləri aparırıq. Vətəndaşlar üzərimizə bel vasitəsilə hücum çəkib, əməkdaşlarımıza xəsarət yetirməyə çalışırlar. Bizim elə xətlərimiz var ki, hasara alıblar, dəyişdirə bilmirik. Yüksək gərginlikli xətlərin altında ev tikəndə bu problemlər, təbii ki, meydana çıxacaq. Hazırda həmin ərazidə xətlərimizi zəbt edən evlərdə yaranan problemlərin həlli və xətlərin dəyişdirilməsi prosesi həyata keçirilir. Orada ayyarımdır yenidənqurma işləri aparırıq. İşlər qısa müddət ərzində tam şəkildə yekunlaşacaq və məsələ birdəfəlik öz həllini tapacaq".

***Günel CƏLİLOVA***

№ 10 (4141) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

22 YANVAR 2020-ci il

www.baki-xeber.com



# Qaranlıqda da sifəti tanıyacaq yeni hərbi texnologiya...

**ABŞ ordusu sifətin istilik şüalanmasının emalı vasitəsilə qaranlıqda onu tanımağa imkan verən texnologiyanın hazırlanmasına 4,5 milyon dollar sərf edəcək.**

"İctnews.az" bildirir ki, sifətin tanınması texnologiyası hazırda hərbçilər tərəfindən insanların döyüş meydanında müəyyənləşdirilməsi üçün istifadə olunur, lakin o, adətən standart videomüşahidə kameralarının görüntülərinə əsaslanır. Yeni texnologiya isə insanların identifikasiyası üçün infraqırmızı təsvirləri analiz etməyə imkan verəcək. Hərbçilərin tələbinə görə, texnologiya insanın daşıya biləcəyi kiçikölçülü qurğuya quraşdırılmalıdır. Bundan başqa, sistem 10-500 metr məsafədə işləmək imkanına malik olmalı və insanların sifətlərini məlumat bazası ilə müqayisə edə bilməlidir. Texnologiyanın hazırlanmasına nəzarət ABŞ Müdafiə Nazirliyinin tərkibinə daxil olan Kriminalistika və Biometriya Agentliyi (Defense Forensics and Biometrics Agency) tərəfindən həyata keçirilir. Agentliyin rəhbərliyi altında infraqırmızı təsvirlərin emalı ilə əlaqədar texnologiyalarla məşğul olan "Cyan Systems" və "Polaris Sensor Technologies" şirkətləri fəaliyyət göstərir.

## Elan

Şəki şəhər sakini Rüstəmov Asim Kazım oğlunun adına verilmiş 6336/ 735 saylı ev qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Şəki şəhər sakini Calalova Gülsəba Qurbanəli qızının adına verilmiş daşınmaz əmlakın texniki paspotu (reyestr nömrəsi- 404011000091-05101-093008) və 0319344 saylı daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Sarıca kənd sakini İmamverdiyev Tahir Teymur oğlunun və ailə üzvlərinin adına verilmiş JN:111 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Göyçayskaya Esfirə İbrahim qızının adına, Bakı şəhəri, Əfəndiyev küçəsi, ev 3, mənzil 26 ünvanına verilmiş qeydiyyat vəsiqəsi (seriya ÖM N120523) itdiyi üçün etibarsız sayılır.

Qasımov Elnur Rafiq oğlunun adına, Binəqədi rayonu, 9 saylı II dairəsi üzrə deputatlığa namizədin seçki vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Süleymanova Alidə Maarif qızının adına, Bakı şəhəri, Yasamal rayonu, Xiyabani küçəsi 18, bina 194, ev 397 ünvanının Şərur MTK tərəfindən verilmiş müqavilə və maliyyə sənədi itdiyi üçün etibarsız sayılır.

Əliyev Arzu Cəmşid oğlunun adına, Bakı şəhəri, Binəqədi rayonu, Goradil bağ massivi ərazisində yerləşən 1737q saylı bağ evinin texniki pasportu və çıxarışı itdiyi üçün etibarsız sayılır.

Şirinov Samid Bayram oğlunun adına, Cəlilabad rayonu, Göytəpə şəhərində yerləşən JN-114, kod 80602004 nömrəli torpağın sənədi itdiyi üçün etibarsız sayılır.

## "Azercell" "Təhlükəsiz internet" təlimin keçirilməsinə dəstək oldu

**Ölkədə kibertəhlükəsizlik sahəsində maarifləndirmə səviyyəsinin artırılmasını hədəfləyərək Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Azərbaycan Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı, "Azercell Telekom" MMC, "Kaspersky" şirkətinin dəstəyilə ümumi təhsil müəssisələrinin informatika müəllimləri üçün xüsusi təlim keçirilib.**

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin İnformasiya-Kommunikasiya Texnologiyalarının Tətbiqi və Tədrisi Mərkəzində baş tutan təlimə videokonfrans vasitəsilə Şamaxı, Gəncə, Mingəçevir, Lənkəran, Bərdə və Qəbələ kimi regionlardan müəllimlər qoşularaq, sosial şəbəkələrdən təhlükəsiz istifadə qaydaları, uşaq və yeniyetmələrin üzləşdiyi kibertəhdidlər və onlardan müdafiə üsulları ilə yaxından tanış olublar. Təlimdə 70 ümumi təhsil müəssisəsinin 100 informatika müəllimi iştirak edib.

Qeyd edək ki, virtual dünyada uşaqların təhlükəsizliyinin təmin edilməsini prioritet hesab edən "Azercell" şirkəti, 2018-2019-cu illər ərzində ölkəminiz müxtəlif bölgələrini əhatə edərək, təhsil müəssisələrində uşaqlar, valideynləri və müəllimlər üçün "İnternet təhlükəsizliyi və rəqəmsal vətəndaşlıq" mövzusunda təlimlər təşkil edib. Təkcə son 1 il ərzində 588 şagird, 78 müəllim və 76 valideyn kibertəhlükəsizlik mövzusunda maarifləndirilib. "Azercell"in təşəbbüsü və təşkilatçılığı ilə keçirilən bu təlimlərdə "Azərbaycan Müəllim İnkişafı Mərkəzi"nin mütəxəssisləri tərəfindən uşaqlara internetdəki təhlükəli oyunlar, ekstremizm çağırışları, internet təhlükəsizliyi, təhlükəsiz ev mühiti kimi mövzulardan bəhs edilib. Müəllim və valideynlər isə, öz növbələrində, qurğuların kibertəhlükələrdən mühafizəsi, login və parolların kibermüdafiəsi, təhlükəsiz paylaşma üsulları, uşaqlar üçün yaradılmış təhlükəsiz resursların siyahıları və internetdən təhlükəsiz istifadənin əsaslarını öyrədən materiallar ilə tanış olublar.

Xatırladaq ki, "Azercell" internetdən təhlükəsiz istifadə istiqamətində fəaliyyətini, həmçinin, innovativ texnologiyalar vasitəsilə sosial məsuliyyət sahəsində təşəbbüslər ilə də davam edir. Belə ki, ötən il "Azercell" dünyanın ən məşhur mobil ticarət həlləri təminatçısı DOCOMO Digital ilə "Azercell Kids" (kids.azercell.com) adlı həm təhsil, həm də əyləncə məzmunlu eksklüziv mobil tətbiqi istifadəyə verib. Valideyn nəzarətinə tam zəmanət verən "Azercell Kids" uşaqları yaş filtrasiyası olan populyar rəqəmsal məzmun ilə təmin edib.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.





**Qoç** - Bu gün çoxsaylı çətinliklərlə yadda qalacaq. Onların öhdəsindən gəlməyin ən asan yolu çətinliklərə o qədər böyük əhəmiyyət verməməkdir. Əməkdaşlığa başlamaq olar. Amma yalnız bir halda ki, potensial müttəfiqinizlə siz eyni ritmdə hərəkət edəsiniz.



**Buğa** - Bu gün sizin üçün yaxşılığa doğru dəyişikliklərlə əlamətdar olacaq. Düzdür, bu dəyişikliklər çox əhəmiyyətli yox, amma çoxdan gözlənilləndir. Addımlarınız rəqib və bədxahlarınızı dalana dirəyəcək, sizə isə ciddi üstünlük qazandıracaq.



**Əkizlər** - Yüksək işgüzarlıq günüdür. Əgər xüsusi nəsə planlaşdırmasanız belə, işlərin özü ortaya çıxacaq. Bu gün ciddi uğurlara bel bağlaya bilərsiniz. İşgüzar əlaqələrin qurulması üçün münasib gündür.



**Xərçəng** - Şəxsi həyatda yaxşılığa doğru dəyişikliklərə nail olmaq olar. Amma bu, öz üzərinizdə ciddi işləməyi, baxışlarınızı bir daha nəzərdən keçirməyi tələb edir. Mövcud problemləri inkar etməyə çalışmayın.



**Şir** - Pul saymaq bacarığı lazımınız olacaq. Üstəlik, tək özünüzün yox, həm də başqalarının pulunu. Lakin bunu yalnız intuisiyasına yox, soyuq məntiqə əsaslanan adamlar bacaracaqlar.



**Qız** - İndi uzunmüddətli planlar (o cümlədən, maliyyə sahəsində) qurmaq və qarşınızda yeni hədəflər qoymaq olar. Ünsiyyət dairəniz genişlənəcək, ətrafınızda həm effektli, həm də maraqlı əməkdaşlıq üçün münasib adamları görəcəksiniz.



**Tərəzi** - İş sahəsində ciddi problemlərin yaranacağı əlverişsiz gündür. Bu gün çoxları başqalarının hərkətlərinin səbəb və bəhanələri ilə maraqlanmadan baltanı kökündən vuracaq.



**Əqrəb** - Təəssüf ki, evdə də vəziyyət yaxşılığa doğru dəyişməyəcək. Münaqişələr və inciklikler çox olacaq. Digər tərəfdən, belə problemlər bu gün nə qədər çox olsa, sabah bir o qədər az olacaq.



**Oxatan** - Bu gün maraqlı imkanlar açacaq. Amma təəssüf ki, onların hamısından yararlanmaq mümkün olmayacaq. Nəinki tez, həm də düşünülmüş hərəkət etmək lazımdır ki, heç bir səy hədər getməsin.



**Oğlaq** - Gün problem və sınaqlarla zəngindir. Baş verənləri aydınlaşdırmaq üçün diqqəti cəm etmək lazımdır. Amma məsələ burasındadır ki, diqqətinizi yayındıracaq və sizi narahat edəcəklər.



**Dolça** - Çox güman ki, bu gün sizin üçün əlverişsiz olacaq. Səfərlər məsləhət deyil. Hədər yerə çox vaxt sərf edəcəksiniz. Can atdığınız şeyi əldə etsəniz də, bu, böyük səylər hesabına başa gələcək.



**Balıqlar** - Bu gün çətin ki Balıqların zövqüncə olsun. Bürcün nümayəndələri özlərini yaxşı tərəfdən göstərmək imkanı əldə edə bilməyəcək və buna görə əməlli-başlı məyus olacaqlar.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## 2050-ci ilə qədər 1 milyon insan Marsa gedəcək...

**SpaceX və Tesla kimi şirkətləri ilə tanınan İlon Mask, Starship proyekti ilə bağlı iddialı fikirləri təsdiqləyib.**

Hazırda Maskın ən böyük planı Mars planetinə insanların getməsini təmin etməkdir. Beləliklə, Marsa insan koloniyasının təməlləri atılmış olacaq.

"Technote" xəbər verir ki, Mask Marsda insan koloniyası qurmaq üçün böyük miqdarda megaton lazım olduğunu bildirib.

Mask Starship gəmilərinin gündə 3 dəfə uçuş etmək bacarığının olduğunu yazıb. Bundan sonra hər istifadəçi gün ərzində 3 uçuşdan 2050-ci ilə qədər 1 milyon insanın Marsa gedə biləcəyini hesablayıb. Mask da bunu təsdiqləyib.

Mask yeni təqdim olunan Cybertruck pikapının Starship gəmisi ilə Marsa gedə biləcəyinə də işarə edib.

***Hazırladı: Ramil QULİYEV***

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

***e-mail: azer22@mail.ru***

**Reyestr № 0106-P219-45846**

**Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.**

***Sifariş: №2514*** ***Tiraj: 3050***

**Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.**

**Reklam mətninə görə qəzet məsuliyyət daşımır.**